www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 oktyabr 2018-ci il Cümə axşamı № 220 (7109) Qiymıəti 60 qəpik

**Xəbər**

## Krımda 22 yaşlı gənc kolleci partlatdı - 19 ölü

yazısı səh.3-də

# SEÇKÖNCƏSİ ABŞ-DAN İRƏVANA SƏRT QARABAĞ MESAJI - PAŞİNYANIN BAŞI DƏRDDƏ...

Ermənistandakı seçkilərin legitimliyi tanınmaya bilər; Venesiya Komissiyası narazıdır; Ağ Ev isə Ermənistanda hansı liderin iqtidarda olmasından asılı olmayaraq, Azərbaycanla anlaşma və İranla bağlı seçim tələb edir...




yazısı səh.8-də

**Gündəm**

## Azərbaycanın taleyini dəyişən gün - 18 oktyabr



Dövlət müstəqilliyi 27 il öncə necə əldə edilmişdi; SSRİ-nin saxlanmasının əleyhinə səs verən 43-lər

yazısı səh.5-də

## Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında yüksək pillədə yer aldı

yazısı səh.9-da

## 4800 şəhid ailəsinin "qanpulu" ala bilməməsinin günahkarı "Azərsığorta"dır, yoxsa?..

yazısı səh.6-da

## Bakı və Abşeronda da bələdiyyə avtobuslarının yaradılması təklifi

yazısı səh.4-də

## 1 milyon manat vergi borcu olan iş adamı azadlığa buraxılmadı

yazısı səh.3-də

## Bakının sürüşmə ərazilərində gərginlik artır

yazısı səh.4-də

## "Made in Azerbaijan" brendi - dünyaya nə çıxara bilərik?

yazısı səh.7-də

## Müxalifətin «payız davası» - düşərgə daxilində savaş böyüyür

yazısı səh.3-də

## Gürcüstanda heç bir namizəd prezidentlik iddiasından çəkilmədi

yazısı səh.10-da

## Jurnalist Camal Qaşıqçının qanını batıran səbəblər

yazısı səh.7-də

## "TAP və TANAP layihələri vaxtında yekunlaşacaq" - ekspert

yazısı səh.10-da

# Xaricə daşınan korrupsiya pulları təhlükədə

Ekspertlər Azərbaycanda kapital amnistiyası təklif edirlər; **Vahid Əhmədov:** "O vəsaitlər kənarda saxlanmayıb Azərbaycana gətirilsin, qanunsuz işlərə deyil, iqtisadiyyata yatırılsın"

yazısı səh.12-də



## Putin Türkiyəyə səfər edəcək

yazısı səh.2-də



*Samir Əliyev:*

## "Sənədsiz əmlaklar rəsmiləşməlidir ki, onlara dair əməliyyatlar aparıla bilsin"

yazısı səh.10-da



*Telman Zeynalov:*

## "Qışın sərt keçəcəyi, çoxlu qar yağacağı proqnozlaşdırılır"

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018



## Prezident AMEA-nın həqiqi və müxbir üzvlərinin aylıq rütbə maaşlarını artırdı

**Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi və müxbir üzvlərinin aylıq rütbə maaşlarının artırılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, 2018-ci il noyabrın 1-dən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərinin aylıq rütbə maaşları 2000 manat və müxbir üzvlərinin aylıq rütbə maaşları 1200 manat məbləğində müəyyən edilsin.

"Azərbaycan Milli Elmlər Akademiyası işçilərinin əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 01 iyul tarixli 967 nömrəli sərəncamının 2-ci hissəsi ləğv edilir.

Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Şəkidə yol tikintisinə 20,08 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Şəki rayonunun Çayqaraqoyunlu-Turan-Cəyir-li-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

"Report"un məlumatına görə, sərəncamla on bir min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Çayqaraqoyunlu-Turan-Cəyir-li-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 20,08 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## 7 əcnəbi Azərbaycan sərhədini saxta sənədlə keçmək istədi

**Dövlət Sərhəd Xidməti (DSX) son günlərdə 7 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycanın dövlət sərhədindən keçmək cəhdinin qarşısını alıb. DSX-nin mətbuat mərkəzindən virtualaz.org-a verilən məlumata görə, oktyabrın 7-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Şarja-Bakı reysi ilə uçub gələn Banqladeş vətəndaşı, 1998-ci il təvəllüdlü Ahmed Mohammad Masumun və 1999-cu il təvəllüdlü Moksu Mohammad Muminoor Rohmanın sərhəd naryadına təqdim etdikləri Hindistan pasportlarının qismən saxtalaşdırılmasına şübhə yaranıb və laboratoriya şəraitində dərinləşdirilən yoxlama zamanı təsdiqini tapıb.**

Oktyabrın 8-də isə "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycan Respublikasından Gürcüstana gedən Pakistan vətəndaşları - 1985-ci il təvəllüdlü Ashraf Muhammadın və 2003-cü il təvəllüdlü Ahmed Bilalın sərhəd naryadına təqdim etdikləri pasportlara vurulan Yunanıstan vizası, həmçinin Ashraf Muhammadın pasportunda Danimarkaya məxsus Şengen vizası saxta olduğu üçün saxlanılıblar.

DSX-dən bildirilib ki, oktyabrın 9-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul reysi ilə uçub gedən Hindistan vətəndaşı, 1998-ci il təvəllüdlü Gurpreet Singhnın sərhəd naryadına təqdim etdiyi pasporta vurulmuş Kanadaya məxsus vizanın saxta olması aşkar olunub. Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Tehran-Bakı-London reysi ilə tranzit uçmaq istəyən İran vətəndaşı, 1990-cı il təvəllüdlü Abedi İmanın sərhəd naryadına təqdim etdiyi İtaliya pasportu, İtaliyanın İD kartı və sürücülük vəsiqəsi saxta olduğu üçün saxlanılıb.

Oktyabrın 14-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Şarja-Bakı reysi ilə gələn İtaliya vətəndaşı, 1961-ci il təvəllüdlü Mshainesh Ahmadın sərhəd naryadına təqdim etdiyi pasportun saxta olması müəyyənləşdirilib, üzərinə baxış keçirilən zaman ona məxsus Suriyaya aid vətəndaşlığı olmayan şəxsin pasportu aşkar olunub. Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər görülüb.

# "Badamdarda quyuların qazılması yolu ilə qrunt suları çıxarılsa, sürüşmə dayanacaq" - Coğrafiya İnstitutu

**Hazırda Bakıda 150 mindən çox insan böyük sürüşmə sahələrində yaşayır, lakin bu say getdikcə daha da artır.**

Bunu «Trend»ə Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Azərbaycanın iqtisadi və siyasi coğrafiyası şöbəsinin müdiri Nəriman Paşayev deyib.

**N.Paşayevin sözlərinə görə, insanların təbiətə müdaxiləsi sürüşmə sahələrinin sayını artırır:** "Bakının sürüşmə zonalarına olan təzyiq gündən-günə artır. Ümumiyyətlə, Bayıl və 20-ci sahənin sürüşməyə meyilli ərazilərindən əhalini köçürmək lazımdır, çünki həmin ərazilər çox yüklənib. Xüsusilə Bayıl yamacında meyillilik çox olduğu üçün həmin ərazilər boşaldılmalıdır. Orada kanalizasiya şəbəkəsi də tam qurulmadığına görə yamacın dayanıqlığını saxlamaq mümkün deyil".



Şöbə müdiri Badamdarda hazırda aktivlik müşahidə edilən sürüşmə ərazisinin gilli süxurlardan ibarət olduğunu qeyd edərək bildirib ki, orada quyuların qazılması yolu ilə qrunt suları çıxarılsa, sürüşmə dayanacaq.

**Sürüşmə olan ərazilərdə yüklənmənin azaldılmasını vacib sayan N.Paşayev əlavə edib ki, həmin ərazilərdə kompleks tədbirlər həyata keçirilməlidir, mühəndis-geoloji, meşə-meliorasiya işləri aparmaq lazımdır:** "Sürüşmə sahələrində dərin kökü olan ağaclar əkilməlidir ki, onlar daim suyu çəkə bilsinlər".

Qeyd edək ki, gecədən yağan yağış Badamdarda sürüşmə sahəsində aktivlik dinamikasını artırıb. Yağan yağış asılı qalmış torpaq qatında kütlələrin islanaraq ağırlaşması nəticəsində yamac boyu hərəkəti artırıb. Hava şəraiti ilə əlaqədar uçqunların davam edəcəyi gözlənilir.

Bundan başqa, Bakının Səbayel rayonu, Bayıl qəsəbəsinin Amfiteatr ərazisində, Buxta küçəsində riskli zonanın hüdudları daxilində yenidən uçqun tipli sürüşmə hadisəsi baş verib. Sürüşmə nəticəsində 9 nömrəli evdə uçqun olub və ev tamamilə dağılıb. Yaxınlıqda yerləşən bir neçə evin divarlarında çatlar müşahidə olunur.



## Putin Türkiyəyə səfər edəcək

**Rusiya prezidenti Vladimir Putin Türkiyəyə səfər edəcək. "Report" xəbər verir ki, bunu dövlət başçısının köməkçisi Yuri Uşakov bildirib.**

Onun sözlərinə görə, İstanbulda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin, Almaniya kansleri Angela Merkel və Fransa prezidenti Emmanuel Makron arasında 4 tərəfli zirvə toplantısı keçiriləcək. Toplantının yaxın zamanlarda gerçəkləşəcəyi gözlənilir. Sammitdə Suriyadakı vəziyyətin müzakirə edilməsi planlaşdırılır.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da V.Putinin Türkiyəyə səfər edəcəyini təsdiqləyib.

## Paytaxtda 50 yaşlı qadın itkin düşüb

**Bakıda 50 yaşlı qadın itkin düşüb. «Trend»in məlumatına görə, hadisə paytaxtın Yasamal rayonu ərazisində baş verib.**

Yasamal rayonu, Zahid Xəlilov küçəsi, 523-cü məhəllə, ev 47-də yaşayan, 1968-ci il təvəllüdlü Bəşirova Zülfiyyə Vəlibəy qızı oktyabrın 7-də yaşadığı evdən çıxaraq naməlum istiqamətə gedib və bir daha geri qayıtmayıb.

Faktla bağlı Yasamal Rayon Polis İdarəsinin 26-cı polis bölməsində araşdırmalara başlanılıb.



## Bakıda kitab aksiyası

**"Həryerədəbiyyat" həştəqi altında kampaniya aparan yazarlar kitabpaylama aksiyası başladıblar.**

Kult.az xəbər verir ki, aksiyaçılar küçədə, mağazada, parkda yoldan keçənləri kampaniya ilə tanış edib, onlara kitab bağışlayıblar. Yazarlar ədəbiyyatın daha geniş kütləyə yayılması üçün hər kəsi kitab bağışlama aksiyasına dəvət ediblər.

Xatırladaq ki, bir müddət əvvəl yazıçı-şair, jurnalist və s. tanınmışlar sosial şəbəkələrdə yeni trend başlatmışdılar. "#Heryeredebiyyat" həştəqi ilə paylaşılan status və videolarda müəlliflər insanları çağdaş ədəbiyyatı oxumağa çağırırlar.



## "Həmsədrlər münaqişənin nizamlanması prosesinin fəallaşması üçün konkret addımları müzakirə edəcəklər" - Zaxarova

**Yaxın zamanlarda ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfər etməyi planlaşdırır. «Trend»in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. M.Zaxarova bildirib ki, səfər zamanı onlar ölkələrin mövqeyini dəqiqləşdirmək və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin fəallaşması üçün hansı konkret addımların atılacağını müzakirə etmək niyyətindədir.**

XİN rəsmisi qeyd edib ki, Rusiyanın ATƏT Minsk Qrupunun həmsədri qismində mövqeyi yaxşı məlumdur:

"Bu mövqe Rusiya, ABŞ və Fransa prezidentlərinin 2009-2013-cü illərdə səslendirdiyi, üç ölkənin xarici işlər nazirlərinin və həmsədrlərin bəyanatlarında əks olunub".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

## Mehman Hüseynovun şikayəti təmin olunmadı

**Mehman Hüseynovun apelyasiya şikayəti təmin olunmayıb.**

BakuPost xəbər verir ki, Bakı Apelyasiya Məhkəməsi bu gün keçirilən iclasda Qaradağ məhkəməsinin qərarını qüvvədə saxlayıb və o, azadlığa buraxılmayıb.

Qeyd edək ki, M.Hüseynov 2017-ci il martın 3-dən həbsdədir. O, Suraxanı Rayon Məhkəməsinin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib.

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

# Müxalifətin "payız davası" - düşərgə daxilində savaş böyüyür

**Son günlərdə müxalifət düşərgəsi yenidən çalxalanır. Camiənin öndə gedən partiyaları bir-birinə qarşı savaş açıblar. Əvvəlcə Müsavat və AXCP REAL-a müharibə elan etdilər.**

Buna səbəb də REAL funksioneri Erkin Qədirlinin müxalifətin təcrübəsiz olduğu barədə fikirləri oldu. E.Qədirli köhnə müxalifətin təcrübə toplamaq və hakimiyyətə gəlmək istəmədiklərini də dilə gətirdi. Onun açıqlamalarından dərhal sonra özlərini köhnə müxalifətin təmsilçiləri sayan Müsavat və AXCP REAL funksionerinin üzərinə hücuma keçərək, onu ən ağır formada aşağılamağa, təhqir etməyə başladılar. Hər iki partiyanın funksionerləri səviyyəsində E.Qədirliyə yönəlik sosial şəbəkələrdə statuslar həsr olundu. E.Qədirlinin müdafiəsinə qalxan, REAL-ın idarə heyətinin üzvü Xalid Bağırovun partiya həmkarının üzərinə gələnlərin "şüvən qopardıqlarını" deməsi və pozğun qadınlara bənzətməsi qarşıdurmanın ən pik həddə çatmasına səbəb oldu. Hazırda da sosial şəbəkələrdə savaş davam etməkdədir.

Bu qarşıdurmanın ardınca müxalif düşərgədə yeni bir savaş cəbhəsi açıldı. Bu dəfə Müsavat və Ümid partiyaları toqquşdular. Bu savaşa səbəb də 2003-cü ildəki 15-16 oktyabr hadisələrinin 15 illiyi ilə bağlı Arif Hacılı və İqbal Ağazadənin Meydan.TV-də canlı yayıma çıxmaları oldu. Liderlər efirdən bir-birini ən sərt şəkildə ittiham etməyə, hətta bir-birilərinin ünvanına təhqirlər səsləndirməyə




**Tural Abbaslı:** "Qarşıdurmaların açıq formaya keçməsi daha xeyirlidir"

**Əli Orucov:** ""Bu debat və müzakirələrdə həm partiyaların görünməyən tərəfləri, həm də bir sıra məsələlər müəyyən qədər aydınlaşır"

başladılar. Bundan sonra hər iki partiyanın tərəfdarları günlərdir ki, sosial şəbəkələrdə "payız müharibəsi" aparırlar.

Baş verənlərdən belə fikir formalaşır ki, müxalifət artıq iqtidarla mübarizəyə deyil, düşərgədaxili savaşa meyllənib, başı özünə qarışıb.

**AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"a bildirdi ki, müxalif partiyaların bir-birinə qarşı mübarizə aparması yaxşı hal deyil:** "Azərbaycandakı hazırkı vəziyyəti və artıq 25 ilə yaxındır uğursuzluğu nəzərə alsaq, bu, qətiyyən qəbuledilməz bir haldır. Azərbaycandakı hazırkı siyasi durumda olan müxalif partiyalar bütün güclərini bir yerə toplayıb hakimiyyətlə mübarizə aparmalıdırlar. Çünki hakimiyyət demək olar ki, ayrı-ayrılıqda bütün partiyaları sıradan çıxarmağı və xalqın nəzərində nüfuzdan salmağı bacarıb. Hələ bunun üzərinə də bu partiyaların öz aralarındakı savaş gəlməsi xalq arasındakı nüfuza bərpaolunmaz zərbələr endirir. Əslində düşünürəm ki, müxalifətdaxili bu ziddiyyətlərin əsl səbəbi partiya rəhbərlərinin keşmişdən bir-birilərinə qarşı olan neqativ münasibətlərinin davamıdır. İnanmıram ki, bu insanların bir-birilərinin şəxslərinə və nə zamansa keçmişdə olmuş narazılıqları aradan qalxana qədər bu qarşıdurmalar səngisin. Odur ki, bəlkə də bu ziddiyyətlər və qarşıdurmaların açıq formaya keçməsi daha xeyirlidir. Qoyun, birdəfəlik öz aralarındakı məsələləri aydınlaşdırsınlar və xalq da bu proses əsnasında kimin haqlı, kimin haqsız olduğuna birdəfəlik özü qiymət versin. Bəlkə bu yolla artıq illərdir mübarizənin önündə tıxac rolu oynayan bəzi siyasilər səhnədən çəkilər. Bununla da səhnəyə daha enerjili, daha səmimi və daha kreativ yeni siyasi kimliklər çıxar. Əks təqdirdə, siyasi gündəmimizi daima keçmişdə olan hadisələr və bu hadisələrin baş verməsində günahkar olan şəxslərin axtarışı zəbt edəcək. Biz müxalifət olaraq keçmişi müzakirə edib, bitirə bilmədiyimiz bir zamanda isə hakimiyyət öz mövqelərini bərkitməklə və gələcəyə dair planlar qurmaqla məşğul olur. Artıq sabaha, gələcəyə baxmağın zamanıdır və biz də AĞ Partiya olaraq bu işlə məşğuluq. Əminəm ki, çox yaxın zamanda hər kəs bu siyasi kursun doğruluğunu qəbul etmək məcburiyyətində qalacaq".

**AMİP katibi Əli Orucov hesab edir ki, müxalifət daxilində müzakirələrin və debatların olması normaldır:** "Bu debat və müzakirələrdə həm partiyaların görünməyən tərəfləri, həm də bir sıra məsələlər müəyyən qədər aydınlaşır. Siyasi rəqabət eyni zamanda inkişaf deməkdir. Lakin bütün bunlar da sivil qaydada etik normalar gözlənilməklə ediləndə xoşdur. Təəssüflər olsun ki, cəmiyyətdəki radikallaşma müxalifətdaxili münasibətlərə də sirayət edib. Biri digərini təhqir etməklə, aşağılamaqla sanki zövq alır, özünə təsəlli sayır. Həyatın digər sahələrində olduğu kimi, siyasi və partiyalaşma sahəsində də bir inhisarçılıq mövcuddur. Köhnəlmiş ənənələrdən və psixologiyadan qurtarmayıblar. Kim onun kimi düşünmürsə, onun istədiyi kimi deyilsə, dərhal satqın damğası vurulur. Bunun bir səbəbi də normal mübarizə yollarının qapadılmasıdır. Əgər bu olsaydı, partiyalar da belə dedi-qodulara, təhqirlərə yol vermədən sağlam siyasi rəqabətə üstünlük verərdilər. Hər bir siyasi qüvvənin özünün seçdiyi yol və yürütdüyü siyasi xətt var. Bəs biz niyə zaman-zaman siyasi plürializm və tolerantlıq mühitinin yaradılmamasından narahat idik?! Sizin də gördüyünüz bəzi xoşagəlməz mənzərə məhz belə cəmiyyətdə yaranır. Yəni bir çoxları dediklərinin və atdığı addımların məsuliyyətini anlamır. Bəzi siyasi qüvvələrin, görünür, heç özləri də sağlam siyasi rəqabətə hazır deyillər. Ona görə də alternativ proqram və ideya, eləcə də vacib problemlərin həlli müzakirəsi deyil, əksərən boş, mənasız hallar üzərində uzun-uzadı söz dueli açılır. Bunlardan maksimum dərəcədə qaçmaq lazımdır. Müxalifət onsuz da cəmiyyətdə və ölkədə gedən proseslərdə iştirak imkanlarını demək olar ki, itirib. Bu barədə düşünmək lazımdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Krımda 22 yaşlı gənc kolleci partlatdı - 19 ölü





**Ukraynanın işğal olunmuş Krım bölgəsindəki Kerç şəhərində Politexnik Kollecinin binasında baş verən partlayış nəticəsində 19 nəfər həlak olub, 50-dən çox insan xəsarət alıb.**

Rusiya KİV-də yayılan ilkin məlumatda bildirildi ki, şahidlər binanın yaxınlığında naməlum şəxs görüb. Bəzi şahidlərin sözlərinə görə, o, pəncərədən içəri hansısa əşyanı atıb, digərlərinin sözlərinə əsasən, içəriyə daxil olub və oraya nəsə yerləşdirib.

Şahidlər qeyd ediblər ki, partlayışdan əvvəl kollecdən atəş səsləri eşidilib. Müşahidə kameralarına da hadisəni törətməkdə şübhəli bilinən 20-25 yaşlı şəxs görüntülənib. Terrorçunun əlində silah və partlayıcı maddə olub.

Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, Krımda terror aktı baş vermiş kollecin tələbələrindən biri jurnalistlərə deyib: "Düzü, gecə yatmamışdım deyə, dərsdə yuxu aparmışdı, elə bu da məni xilas etdi. Möhkəm səs-küydən ayıldım. Kabinetdən dəhlizə baxanda gördüm ki, əlində silah olan bir nəfər hamını güllələyir.

Qapını bağladım ki, bəlkə məni görməz. 10 dəqiqə sonra xüsusi təyinatlılar gəldi və mən kabinetdən çıxdım. Atəş açanın başına gələnlərdən xəbərim yoxdur. Partlayış baş verən dəhlizdə şüşələr sınmışdı, döşəmədə çoxlu meyit vardı. Bütün divarlar qaralmışdı".

Rusiya Milli Antiterror Komitəsi hadisədən bir neçə saat sonra elan etdi ki, Krımda baş vermiş partlayış terror aktıdır.

**Kollec direktoru isə mətbuata açıqlamasında deyib ki, hadisədən yarım saat əvvəl iş dalınca harasa gedib. O deyib:** "Binada olsaydım indi mənim də meyitim qalmışdı. Mənim Nadyamı, anasını da öldürdülər. Avtomatla yuxarı mərtəbəyə qaçıblar, otaqların qapısını açıb hamını güllələyiblər. Əsl terror aktıdır... Eyni Beslandakı kimi... Uşaqlar ölüblər, əməkdaşlar həlak olublar".

Məlumatlara görə, terrorçu binaya daxil olaraq gücü trotil ekvivalenti ilə təxminən 300 qram olan bombanı partladıb. Partlayış nəticəsində panika yaranıb və tələbələr qaçmağa çalışıb. Bu dəfə terrorçu onları avtomatla qırmağa başlayıb, yaralılara da aman verilməyib.

Ölənlərin əksəriyyəti texnikum tələbələri olan yeniyetmələrdir.

Krım başçısı Sergey Aksyonov əlavə edib ki, terror aktını törətmiş 22 yaşlı gənc həmin kollecin tələbəsi olub və o, faciəni törətdikdən sonra özünü də öldürüb.

Hadisə ilə əlaqədar Krımda üç günlük matəm elan edilib.

❑ **T.ƏHMƏDLİ, "Yeni Müsavat"**

# İş adamı azadlığa buraxılmadı

## Xanlar Cəfərovun 1 milyon manat vergi borcu var

**Paytaxtda eyni mənzilləri bir neçə nəfərə satmaq ittihamı ilə həbs edilən iş adamı növbəti dəfə hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda və vergidən yayınmaqda ittiham edilən 1955-ci il təvəllüdlü Cəfərov Xanlar Məhəmməd oğlunun cinayət işi üzrə məhkəmə iclası başlayıb.

Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən məhkəmənin hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Xanlar Cəfərovun vəkilləri məhkəmədə vəsatətlə çıxış ediblər.

Vəkillər bildirib ki, Xanlar Cəfərovun səhhətində problem var. Müdafiəçilər onun əməliyyat olunması ilə bağlı sənədləri də məhkəməyə təqdim ediblər.

Həmçinin vəkillər vəsatətdə qeyd ediblər ki, zərərçəkmişlərlə barışıq əldə edilib, dəymiş zərər ödənilib.

"Xanlar Cəfərova 1 milyon 30 min manat vergidən yayınma ittihamı da verilib. Amma onun 2 milyondan artıq dəyəri olan əmlakına həbs qoyulub. Yəni məhkəmə sonunda əmlak ziyanın ödənilməsinə yönləndirilə bilər. Bütün bunları nəzərə alaraq Xanlar Cəfərovun ev dustaqlığına buraxılmasını xahiş edirik"- deyə vəkillər vəsatətdə qeyd edib.

Dövlət ittihamçısı isə vəsatətin təmin edilməsi üçün əsas olmadığını bildirib. Prokuror qeyd edib ki, Vergilər Nazirliyinə dəymiş zərərdən yalnız 100 min manat ödənilib.

Məhkəmə müşavirədən sonra vəsatətlə bağlı qərarı elan edib. Qərara əsasən vəsatət təmin edilməyib.

Məhkəmənin baxış iclası oktyabrın 24-nə təyin edilib.

Qeyd edək ki, X.Cəfərov dələduzluqda və vergidən yayınmada təqsirləndirilir.

X.Cəfərovun rəhbəri olduğu "Avro Qrand" şirkəti Binəqədi rayonu Arif Məmmədov küçəsi 10 ünvanında bina inşa edib.

Nağd ödəniş edərək ev alan sakinlər nə mənzillərinə köçə biliblər, nə də pulları qaytarılıb. Binadakı bir neçə mənzil eyni vaxtda 3-4 şəxsə satılıb.

Tikintinin yarımçıq qaldığını görən sakinlər araşdırma aparmağa başlayıblar. Bir müddət sonra onlar müəyyən ediblər ki, şirkətin rəhbəri bir mənzili bir neçə şəxsə sataraq onları aldadıb.

Sonuncu dəfə iki otaqlı mənzili ucuz qiymətə növbəti şəxsə satarkən Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.

❑ **İlkin MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

**Bakının bir neçə sürüşmə zonasında aktivlik yaranıb. Xüsusilə də Badamdar yaylasında vəziyyət daha da gərginləşib və Bayıl ərazisində də sürüşmə zonası aktivləşib. Bu barədə "Yeni Müsavat"a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov söyləyib ki, sürüşmə nəticəsində bir ev uçub:**

# Bakının sürüşmə ərazilərində gərginlik artır

## **Əziz Qaralov:** "Bayıl qəsəbəsinin Amfiteatr ərazisində Buxta küçəsində riskli zonanın hüdudları daxilində yenidən uçqun tipli sürüşmə hadisəsi baş verib" **Əzim Məsimov:** "11 evin üzərinə fokuslanmayaq, problem ümumən Badamdar ərazisinə aiddir"







"Oktyabrın 17-də səhər saatlarında Səbayel rayonu, Bayıl qəsəbəsinin Amfiteatr ərazisində Buxta küçəsində riskli zonanın hüdudları daxilində yenidən uçqun tipli sürüşmə hadisəsi baş verib. Sürüşmə nəticəsində 9 nömrəli evdə uçqun prosesi baş verib və ev tamamilə dağılıb. Yaxınlıqda yerləşən bir neçə evin divarlarında çatlar müşahidə olunur. Ərazi yüksək mailli yamacda yerləşir və yamacın təbii meyilliyi 35-40 dərəcədir. Həmin yamac pilləli şəkildə kəsilib, tökmə torpaq üzərində pərakəndə şəkildə evlər tikilib. Nəticədə də yamac yüklənib, dayanıqlığı zəifləyib, kommunikasiya xətlərindən sular sızıb, torpaq qatının yuyulması prosesi gedib və bu səbəbdən aşınma və çökmə hadisəsi baş verib. Ümumiyyətlə, bu ərazi sürüşmə, uçqun, yuyulma və çökmə kimi ekzogen proseslərin təsirinə məruz qalan bir sahə hesab olunur. Bu ilin yaz aylarında da həmin ərazidə sürüşmə baş vermişdi. O zaman 23 ev təhlükəli zonada yerləşdiyi üçün siyahıya alınmışdı. İndi uçan mənzil həmin siyahıya daxil edilən evlərdən biridir".

**Eyni zamanda oktyabrın 17-də səhər saatlarında Bibiheybət istiqamətində gedən avtomobil yolunun sağ tərəfində qoruyucu divarın üzərinə vurulmuş üzlük daşları qoparaq asfalt üzərinə tökülüb. Əziz Qaralov söyləyib ki, bu hadisə sürüşmə ilə bağlı deyil:**

"Ərazidə evlərə təhlükə yoxdur. Eləcə də yamacın özündə, orada yerləşən binalarda sürüşməyə aid nişanə yoxdur. Yəni bu, sürüşmə prosesi deyil", - deyə Ə. Qaralov söyləyib.

**Badamdarda isə sürüşmə prosesində aktivlik müşahidə olunur. Ə. Qaralov söyləyib ki, havanın yağmurlu keçməsi vəziyyəti bir qədər də çətinləşdirib:**

"Yağmur nəticəsində sürüşmədən sonra yamacda asılı qalmış ağır torpaq kütlələri islanıb, ağırlaşıb. Buna görə də yol istiqamətində xırda uçqun tipli yuvarlanmalar baş verir".

Onu da qeyd edək ki, sürüşmə zonasında yerləşən 11 ev təhlükədədir. Həmin evlərdən birinin istinad divarları uçub, digərlərində isə çatlar əmələ gəlib.

**Ekspert Əzim Məsimov isə "Yeni Müsavat"a söyləyib ki, əslində, sadəcə olaraq, 11 evin üzərinə fokuslanmaq olmaz. Problem bütün Badamdar ərazisinə aiddir. Buna səbəb isə ərazinin kanalizasiya sisteminin olmamasıdır:**

"Hazırda 11 ev sürüşmənin baş verdiyi ərazinin tam yaxınlığında olduğu üçün hər kəs bundan danışır. Hacıbala Abutalıbov və digərləri də məhz bu 11 evin üzərinə fokuslanıblar. Bəs nə üçün deyilmir ki, digər evlər də təhlükədədir? Problem odur ki, Badamdar boyda ərazinin kanalizasiya sistemi yoxdur. Badamdar hələ 1990-cı ildə qəsəbə statusu alıb. Rəsmi məlumatlara görə orada 21,6 min nəfər əhali yaşayır. Əslində isə əhalinin sayı daha da çoxdur. Çünki bu ərazi son illər Bakı şəhərinin böyük yaşayış massivinə çevrilib. Bəs necə olur ki, yaşayış massivinə kanalizasiya xətti çəkilməyib? Əsas müzakirə mövzusu hazırda bu olmalıdır. Əvvəllər Bakı Şəhər Memarlıq və Şəhərsalma İdarəsində şöbə fəaliyyət göstərirdi. Həmin şöbənin əməkdaşları Bakı şəhərində aparılan tikinti işlərinə nəzarət edirdi. Onlar xəritə əllərində Abşeronu gəzib baxırdılar ki, harada hansı işlər görülür. Bütün qeydlər Bakı Şəhər İcra Hakimiyyətinə aparılırdı. Orada müzakirə olunub, qərar verilirdi. Kim qanunsuz ev tikirdisə, tikinti dayandırılır, icazə verənə isə cəza tətbiq olunurdu. Badamdar ərazisi də 20 ildir ki, tikilir. Bunu da bütün səlahiyyətli məmurlar görür. Bayıl yamacında, teleqüllə ətrafındakı sürüşmənin də səbəbi Badamdar yaylasından gələn kanalizasiya suyudur. Yapon alimini gətirirlər ki, biz kanalizasiya tikməmişik, gəlin fikir söyləyin. Bu, millətə təhqirdir. Başa düşmürlərsə, Azərbaycanda kifayət qədər mütəxəssis var. Onları dəvət etsinlər, izah edək. Bundan əlavə, başa düşmürəm ki, quyunu nə üçün qazırlar. Quyunu suyun mənşəyini öyrənmək üçün qazmaq lazım gəlir. Burada bəllidir ki, bu, kanalizasiya suyudur".

Coğrafiya İnstitutunun mütəxəssislərinin apardıqları tədqiqatlara görə, hazırda Bakıda Əhmədli şosesi, Zığ şosesi, Binəqədi, Bayıl, Badamdardakı Qurd qapısı, Qanlı göl, Lökbatan yamacı, Qaradağ rayonunun Qobustan və Ələt qəsəbələrinə doğru olan ərazilər, Masazır gölünün ətrafı - ümumilikdə təxminən 20 yerdə böyük sürüşmə sahəsi var. Bu ərazilərdə sürüşmə sahələri geniş yayılıb və həmin ərazilərdə sürüşmə baxımından yaşamaq üçün olduqca təhlükəli hesab edilir. Buna baxmayaraq, həmin sürüşmə sahələrində 150 mindən çox əhali məskunlaşıb. Sürüşmə zonaları hər zaman aktiv olmasa da ümumilikdə əlverişli şərait yarandığı anda problemlər ortaya çıxır. Belə ki, sürüşmələr daha çox qar yağdıqdan sonra baş verir. Lakin təbii amillərlə yanaşı, su, kanalizasiya borularının köhnəlməsi və həmin ərazilərdə çoxsaylı iritonnajlı maşınların hərəkəti, insanların yamacları kəsib evlər tikməsi də sürüşməyə səbəb olan amillərdir. Bayılda son 20-25 ildə sürüşmənin daha da aktivləşdiyi bildirilsə də, yuxarıda qeyd etdiyimiz digər ərazilərdə də durum heç də ürəkaçan deyil. Mütəxəssislər bildirirlər ki, ildən-ilə Azərbaycanda sürüşmə sahələrinin sayı artır. 1980-ci ildə Azərbaycanda 100 yaşayış məntəqəsində sürüşmə qeydə alınırdısa, indi bu göstərici 400-ə yüksəlib.

Oktyabrın 17-də Bakının mərkəzində, Səməd Vurğun küçəsində də 60 metr uzunluğu, 3 metr enində sürüşmə qeydə alınıb.

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli bildirib ki, qurum əməkdaşları sözügedən ərazidə olublar, ilkin baxış keçirilib:** "Müəyyən olunub ki, həmin ərazidə pilot layihə əsasında yeni bina inşa edilir. Qazıntı işləri aparılarkən yolun dayanıqlığı və geoloji işlər aparılmadan tikinti işləri həyata keçirilib. Yolun sürüşməməsi üçün divar qurulmalıydı. Nəticədə yağış yağarkən sürüşmə qeydə alınıb. Hazırda əraziyə dəymiş ziyanın məbləği ilə bağlı araşdırma aparılır. Tikinti aparan şirkət yola dəymiş ziyanı ödəyəcək. Bundan başqa, AAYDA sözügedən ərazidə bərpa işlərinə başlayıb".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bakı və Abşeronda da bələdiyyə avtobuslarının yaradılması təklifi




## **Ekspert:** "Bununla həm sərnişindaşımada vəziyyət yaxşılaşar, həm də bələdiyyələrin büdcəsində sosial problemləri həll etmək üçün vəsait toplanar"

**Bakıda artıq demək olar ki, hər həftə avtobus qəzaları baş verir. Son olaraq oktyabrın 17-də Suraxanı rayonunda zəncirvari avtobus qəzası baş verib. "Bakubus" MMC-yə məxsus İveco markalı 3 sərnişin avtobusu toqquşub. Qəza nəticəsində avtobuslar yararsız hala düşüb. Məlumata görə, qəza avtobuslar qaraja gedərkən baş verib. Ona görə də içərilərində sərnişin olmayıb.**

Ekspertlər bildirirlər ki, avtobus qəzalarının bu qədər çox olmasının səbəblərindən biri də nəzarətsizlikdir. Bakı Nəqliyyat Agentliyinin məlumatına görə, Bakıya yaxın zamanlarda 300 müasir avtobus alınacaq. Məlumatlara görə, bu istiqamətdə danışıqlar aparılır. Agentlik həmçinin məlumat yayaraq bildirib ki, son illər Bakıya 300-dən artıq yeni avtobus gətirilib.

Lakin ekspertlərin fikrincə, avtobus parkının yenilənməsi problemlərin həlli demək deyil. Onların fikrincə, qəzalar əsasən sürücülərin qaydalara əməl etməməsi, onları işə götürənlərin isə məsuliyyətsizliyi üzündən baş verir.

Ekspertlər və bəzi bələdiyyə sədrləri tərəfindən belə təkliflər irəli sürülür ki, digər xarici ölkələrdə olduğu kimi gətirilən avtobuslar bələdiyyələrə həvalə olunsun. Qeyd edilir ki, bu avtobuslar uzunmüddətli kredit şərtləri ilə bələdiyyələrin tabeliyinə verilərsə, vəziyyət indikindən yaxşı olar.

**"Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynov məsələ ilə bağlı aşağıdakıları söyləyib:**

"Məlumdur ki, adətən model olaraq qonşu Türkiyənin üzərində dayanıb, oradakı struktura istinad edirik. Türkiyədə bələdiyyə avtobusları var. Bu avtobuslar xidmətdən gələn gəlirləri həm də bələdiyyənin büdcəsinə ödəyirlər. Nəticədə bələdiyyə büdcəsində toplanan vəsaitlə digər sosial layihələrin icrasına dəstək olurlar. Söhbət ondan gedir ki, daşımaçılıqda özəl şirkətlərin qalmasının bazarda heç bir problemi yoxdur. Biz demirik ki, özəl şirkətlər tamamilə ləğv edilsin. Sərnişindaşıma çox böyük bir layihədir. Burada söhbət təkcə şəhərdaxili sərnişindaşımadan getmir. Eyni zamanda ölkə xaricinə də sərnişindaşıma nəzərdə tutulur. Burada özəl şirkətlərin mövqeyi nəzərə alınmalıdır. Məlumdur ki, bələdiyyələrin maliyyə-iqtisadi əsaslarında ciddi problemlər var. Bələdiyyələrə qanunvericilikdə müəyyən üstünlüklər verilib. Lakin təəssüf ki, onlar bu üstünlüklərdən maliyyə imkansızlığı səbəbindən istifadə edə bilmirlər. Belə bir avtobus parklarının yaradılması ölkə üçün avantajlıdır. Çünki bələdiyyələr seçkili orqandır. Onlar xalq qarşısında hesabat verirlər. Bu baxımdan çalışacaqlar ki, xidməti maksimum yüksək səviyyədə həyata keçirsinlər. Çünki növbəti illərdə də məqsədləri bu olacaq ki, vətəndaşlardan səs ala bilsinlər. Sözsüz, bələdiyyə seçkilərində müəyyən "təyinatlar" da olur. Ancaq zaman gələcək ki, bütün bu kimi məqamlar baş verməyəcək. İstənilən halda, təyinatlı qurum olsalar belə, onların xalq qarşısında üzərlərinə götürdükləri sosial öhdəliklər var".

**Ekspert bildirib ki, bələdiyyə ərazisində sərnişindaşıma xidməti həyata keçirilərsə, sürücü seçimi də mükəmməl olar:** "Bundan əlavə, 300 ədəd avtobus alınırsa, bu, 300 yeni iş yerinin yaradılması demək olar. Digər tərəfdən, həmin bələdiyyələr marağında olacaqlar ki, xidməti də yüksək səviyyədə təşkil etsinlər. Çünki belə olarsa, nəqliyyat vasitəsini almaq üçün sərf etdikləri krediti normal və zamanında qaytara bilərlər. Yəni bələdiyyələrin üzərlərində kifayət qədər şərtlər olacaq ki, həmin xidməti yüksək səviyyədə təşkil etməyə nail olsunlar. Bu anlamda götürsək, bir neçə hədəfə nail ola bilirik. Həm bələdiyyələrin maliyyə imkanlarının artırılması, həm xidmətin yüksək səviyyədə təşkili, həm də vətəndaşlar qarşısındakı hesabatı nəzərə alaraq, məsuliyyət yükünün artırılması baxımından faydalı təklifdir".

**Bəzi şəxslər bildirirlər ki, Bakıda fəaliyyət göstərən avtobuslar sərnişindaşıma üçün nəzərdə tutulmayıb və buna görə də tez-tez qəzalar baş verir. İlqar Hüseynov bu məsələ ilə bağlı da fikirlərini söyləyib:** "Avtomobil istehsal edən şirkətlər hər il yeniliklər edirlər. Yəni ötən il aldığın avtomobil artıq köhnə sayılır. Bizdə sərnişindaşımada istifadə olunan avtobuslar, sadəcə olaraq, model kimi çox köhnədir. Lakin sərnişindaşıma üçün nəzərdə tutulub. Ola bilər ki, bu gün şəhərdə olan müasir avtobuslar 5 il sonra texniki baxımdan yararsız hesab ediləcək. Söhbət bundan gedir. Şirkətlər çalışmalıdır ki, müəyyən müddət sonra avtomobil parklarını yeniləsinlər. Belə edərlərsə, bu, ümumi işin faydasına olar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

# Azərbaycanın taleyini dəyişən gün - 18 oktyabr

## Dövlət müstəqilliyi 27 il öncə necə əldə edilmişdi; SSRİ-nin saxlanmasının əleyhinə səs verən 43-lər



**Bu gün Azərbaycanın dövlət müstəqilliyi günüdür. 18 oktyabr 1991-ci ildə Ali Sovetdə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilib.**

Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının lehinə Ali Sovetin 360 deputatından 258-i səs verib, yerdə qalanlar sessiyaya qatılmayıblar. Konstitusiya Aktında göstərilir ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin hüquqi varisidir. Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir.

18 oktyabra gələn yol elə də asan olmayıb. 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Müstəqilliyimizin yenidən əldə edilməsi üçün mübarizə 1980-ci illərin sonlarında start götürmüşdü. Dağlıq Qarabağda erməni millətçilərinin separat çağırışlarına qarşı başlanan hərəkat tezliklə milli azadlıq hərəkatına çevrilir. 1990-cı il qanlı 20 yanvar hadisəsi isə xalq hərəkatını boğmağa hesablansa da, əks-effekt verir. Azadlıq mübarizəsinin miqyası böyüyür. 1990-cı ilin sentyabrında Azərbaycan Respublikasının xalq deputatı seçkiləri keçirilir. Oktyabrda 25 nəfər deputatdan ibarət "Müstəqil Azərbaycan Deputat Bloku" ("Demblok") yaradılır. Onların əksəriyyəti Əbülfəz Elçibəyin liderlik etdiyi Azərbaycan Xalq Cəbhəsinin üzvləri idi. "Demblok"un yaranması ilə müstəqillik uğrunda mübarizə parlament daxilinə də keçir. Yeni Ali Sovetin ilk sessiyası 1991-ci il fevralın 5-də keçirilir. Sessiya başlayan kimi "Demblok" üzvləri çıxış edərək Azərbaycanın SSRİ-dən ayrılması və müstəqilliyinin elan edilməsi barədə Ali Sovetin qərar qəbul etməsi tələbini irəli sürürlər. "Demblok"un ilk qələbəsi elə həmin gün baş verir. Belə ki, Ali Sovet Azərbaycanın adından SSR sözünün çıxarılması qərarını verməyə məcbur olur, AXC-nin üçrəngli bayrağı ilk dəfə həmin gün parlamentə gətirilir və Azərbaycan Respublikasının bayrağı kimi qəbul edilir. Bu hadisə bütün SSRİ-də və dünyada ciddi əks-sədaya səbəb olur. 350 deputatı olan Ali Sovetdə 25 deputatın bu cür ciddi qərarların qəbuluna nail olması SSRİ və Azərbaycan rəhbərliyini qəzəbləndirir. "Demblok" üzvlərinə təzyiqlərə start verilir.

Moskva isə SSRİ-nin dağılmasının qarşısını almaq yollarını aramaqdaydı. SSRİ-nin saxlanması üçün referendum keçirilməsi qərarı verilir. Martın 7-də Azərbaycan Ali Sovetində SSRİ-nin saxlanması ilə bağlı referendum keçirilməsi məsələsi müzakirəyə çıxarılır. Məlum olur ki, 350 nəfər deputatdan referendumun keçirilməsinin lehinə 254 nəfər, əleyhinə 43 nəfər (25 demblok üzvündən başqa 18 deputat da əleyhinə səs verib), 6 nəfər bitərəf qalıb, 47 deputat isə iclasda iştirak etməyib. Beləliklə, həmin 43-lər SSRİ-nin əleyhinə çıxmaqla və Azərbaycanın müstəqilliyinə səs verməklə Azərbaycan tarixinə "istiqlalçı deputatlar" adı ilə daxil olurlar.

**Onlar aşağıdakılar idi: Heydər Əliyev, İxtiyar Şirinov, Firudin Cəlilov, Dilarə Əliyeva, Füzuli Axundov, Aydın Məmmədov, Əyyam Musayev, Vaqif Novruzov, Vahid Əhmədov, Ramiz Fətəliyev, Cümşüd Nuriyev, Məmməd Xələfov, Etibar Məmmədov, Nəriman Həsənzadə, İsa Qəmbər, Sabir Rüstəmxanlı, Tofiq Bağırov, Mürşüd Məmmədli, Şadman Hüseynov, Faiq Baxşəliyev, Mirmahmud Fəttayev, Ədalət Rəhimov, İsgəndər Həmidov, Mətləb Mütəllimov, Tahir Əliyev, Rəhim Qazıyev, Tamerlan Qarayev, Eldar Bağırov, Tofiq Qasımov, Məryəm Həsənova, Arif Hacılı, Tahir Kərimli, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Maşallah Abdullayev, Hacıbaba Əzimov, Bayram Bayramov, Hicran Kərimli, İbrahim İbrahimli, Allahverdi Həsənov, Süleddin Əkbər, Şahmərdan Cəfərov, Fərəc Quliyev.**

Səsvermədə bitərəf qalan 6 nəfər isə bunlardır: Arif Əliyev, Rəsul Quliyev, Fikrət Sadıxov, Kamilə Həsənəliyeva, Mübariz Abbasov, Xudaverdi Hənifəyev.

Bədnam səsvermədən sonra 17 martda SSRİ-nin saxlanması ilə bağlı qondarma referendum keçirilsə də xalq hərəkatının təzyiqi və istiqlalçı deputatların səyi nəticəsində Ali Sovet 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə qəbul edir.

İstiqlalçı deputat, Müstəqillik haqqında Konstitusiya Aktını hazırlayan komissiyanın sədri professor Hacıbaba Əzimov bildirir ki, adıçəkilən bəyannamə əslində 3-4 cümlədən ibarət olub və deklorativ xarakter daşıyırmış. Sənəddə müstəqilliyə təminat verən heç bir müddəa olmayıb. İstiqlalçı deputatlar sənədi, sadəcə, adına görə qəbul edirlər, lakin yalnız bununla kifayətlənmirlər. Müstəqilliyə təminat verən Konstitusiya Aktı qəbul edilməsi tələbini irəli sürürlər. Oktyabrın əvvəlində Ali Sovetin rəhbərliyi Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının layihəsini parlamentə təqdim edir. Məlum olur ki, layihədə müstəqilliyi şərtləndirən, müstəqilliyin davamlı olması üçün imkanlar yaradan maddə və müddəalar yoxdur. İstiqlalçı deputatlar layihənin qəbulunun əleyhinə çıxırlar və bildirirlər ki, layihə xalqın başını aldatmaq üçün ortaya atılıb. Ona görə də mükəmməl sənəd hazırlanmalıdır. İstiqlalçı deputatların tələbi ilə Ali Sovet 10 nəfərdən ibarət komissiya seçir. Komissiyanın sədri isə "Demblok" üzvlərindən Hacıbaba Əzimov seçilir. Komissiyanın 32 maddədən ibarət Konstitusiya Aktı layihəsini hazırlaması təxminən 10 gün çəkir və oktyabrın 17 və 18-də Ali Sovetin sessiyasında müzakirə edilir.

Konstitusiya Qanunu olduğuna görə Aktın hər bir maddəsi ayrıca müzakirə edilir və səsverməyə qoyulur.

Bu zaman hakimiyyətin sifarişi ilə "Komblok" üzvləri tərəfindən kvorumu pozmaq cəhdləri edilir. Belə ki, sənədin qəbul olunması üçün deputatların ümumi sayının 3-də 2-sinin sənədin lehinə səs verməsi tələb olunduğundan, "Komblok" yetərsayın alınmamasına nail olmaq istəyirmiş. 92 nəfər, ümumiyyətlə, sessiyaya qatılmayıbmış. Sessiyaya gələn "Komblok" üzvlərinin bir qismi isə səsvermədən yayınıblar. Vəziyyətin arzuolunmaz şəkil aldığını görən İsa Qəmbər çıxış edərək adbaad səsvermə keçirilməsi təklifini irəli sürür. Ali Sovet təklifi qəbul edir. Bundan sonra yetərsayın alınmaması üçün salonu tərk edən, təxribatçılıq eləyən "Komblok" üzvləri məcburiyyət qarşısında qalaraq iclas salonuna qayıdırlar və səs verirlər. Ali Sovetdə son dərəcə gərgin müzakirələr keçirilir. İki gün ərzində 32 maddənin hamısı ayrı-ayrılıqda müzakirə edilib səsvermə ilə qəbul edilir. Oktyabrın 18-də axşamüstü, nəhayət, tarixi an baş verir: Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı bütövlükdə səsə qoyulur. Sessiyada iştirak edən 258 nəfərin hamısı sənədin qəbuluna səs verir. Bununla da Azərbaycan müstəqilliyini elan edir.

1991-ci il dekabrın 29-da ümumxalq referendumu keçirilir və Konstitusiya Aktı referendum yolu ilə xalq tərəfindən təsbit olunur. Hazırkı konstitusiyamızın girişində qeyd edilir ki, bu Konstitusiya Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının prinsipləri əsas tutularaq qəbul olunur.

Artıq 27 ildir Azərbaycan müstəqil dövlətdir. BMT başda olmaqla, dünyanın əksər nüfuzlu beynəlxalq təşkilatlarının üzvüdür. Müstəqillik Azərbaycan xalqının, xalq hərəkatının, istiqlalçı deputatların mübarizəsi Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi ilə nəticələnir.

Azərbaycanda ilk dəfə bütün siyasi qüvvələr arasında milli birlik məhz həmin gün-oktyabrın 18-də yaranır.

Hadisədən dərhal sonra Azərbaycanın müstəqilliyinin dünya birliyi tərəfindən tanınması prosesi başlanır. İlk olaraq Türkiyə, sonra Pakistan, Rumıniya Azərbaycanın müstəqilliyini tanıdığını dövlətinin və xalqının ən böyük nemətidir. Bu illər ərzində Azərbaycan dünyada hörmət edilən, güclü iqtisadiyyata sahib ölkələrdən birinə çevrilib. Müstəqilliyimiz dövründə itkilərimiz də olub-Qarabağ Ermənistan tərəfindən işğal edilib və bu işğal hələ də davam edir. Lakin artıq güclənmiş Azərbaycan dövlətinin öz ərazi bütövlüyünü gec-tez bərpa edəcəyi şübhəsizdir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Dövlət Təhlükəsizliyi Xidmətinə yeni səlahiyyətlər verildi

**Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunun qüvvəyə minməsi ilə əlaqədar Fərman imzalanıb.**

Virtualaz.org xəbər verir ki, həmin qanunla Cinayət Məcəlləsinə "Dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər" (maddə 219-2), "Radioaktiv materiallardan istifadə edərək öldürməklə, sağlamlığa ağır zərər vurmaqla və ya əmlaka əhəmiyyətli zərər vurmaqla hədələmə" (maddə 226.3), "Radioaktiv materialları talamaqla hədələmə" (maddə 227-1), "Aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər"ə (maddə 270-1) görə cinayət məsuliyyəti nəzərdə tutan yeni maddələr əlavə edilib.

Prezidentin fərmanına əsasən, qeyd olunan cinayət əməllərinin istintaqı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin səlahiyyətlərinə daxil edilib.

❑ **virtualaz.org**

# “Made in Azerbaijan” brendi-dünyaya nə çıxara bilərik?

## Ekspert: “Marka tanıtımı üçün illər və on milyonlarla vəsait lazımdır”

**Prezident İlham Əliyev 2016-cı ilin 5 oktyabr tarixində qeyri-neft məhsullarının “Made in Azerbaijan” adı altında xarici bazarlarda genişmiqyaslı təbliğini nəzərdə tutan fərman imzalayıb. Bu isə ölkənin qeyri-neft sektorunun inkişafına və bu sahədə istehsal olunan məhsulların dünya bazarlarına çıxarılmasına yeni imkanlar yaradıb.**

Fərmana əsasən, “Made in Azerbaijan” brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə 10 fərqli dəstək mexanizmi işlənib hazırlanıb. Bu dəstək tədbirlərindən asılı olaraq onların həyata keçirilməsi ilə bağlı xərclər tam və ya qismən dövlət büdcəsi hesabına qarşılanır. Ən başlıcası isə Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracı ilə məşğul olan hər bir ixracatçı bu dəstək tədbirlərinə müraciət etmək hüququna sahibdir.

“Made in Azerbaijan” brendli məhsulların yaradılması isə ölkəmizdə yeni qurulan bir neçə sənaye parkında istehsal olunur və gələcəkdə onların istehsal həcmi daha da artırılacaqdır. Məlumatlara görə, ölkəmiz bu gün dünyanın 50 faiz istehlakçısını əhatə edən 50 ölkəyə məhsul ixrac edir.

Bu ilin avqust ayında yayılan məlumatlarda qeyd edilir ki, hazırda neftlə yanaşı, aqrar məhsullar, kimya, metal və ondan hazırlanan məmulatlar, plastik borular və s. kimi yerli məhsullar dünya bazarına çıxırılır. Kənd təsərrüfatı məhsulları sırasından Azərbaycan narı, pomidor, fındıq qlobal arenada kifayət qədər tanınır. Emal sahəsindən də tanınan məhsullarımız az deyil. Bunlara şərablar, şirələri, kimya məhsullarını, plastik məmulatları, energetika sahəsində istehsal olunan avadanlıqları misal göstərmək olar.




Sovet dövründə Azərbaycanda soyuducu, kondisioner kimi məişət avadanlıqları da istehsal olunub, əsasən indiki MDB ölkələrinə ixrac edilirdi. Bu gün də adını çəkdiyimiz məhsulların ölkədə istehsalı həyata keçirilir. Bəs Azərbaycanda bu kimi məhsullar xarici bazara “Made in Azerbaijan” brendi adı altında çıxara bilərmi?

**“Yeni Müsavat”a danışan iqtisadçı ekspert Natiq Cəfərli söyləyib ki, Azərbaycanın bu kimi məhsulları da xarici bazara çıxarması mümkündür. Lakin bunun üçün müvafiq addımlar atılmalıdır:** “Bunun üçün əlavə yatırımlara ehtiyac yaranacaq. Çünki dünya bu texnologiyalar üzrə xeyli irəli gedib. Bu baxımdan biz bazarda yer tutmaq istəyiriksə, yaxın çevrə ölkələrinə ixrac etməyi düşünürüksə, bu məhsulların yenidən rebrendinqinə ehtiyac var. Yeni Azərbaycan şirkətinin dünyada ən məşhur şirkətlə birlikdə fəaliyyət göstərməsi, bazarda yerini tutmasına daha çox köməklik edə bilər. Məsələn, istənilən Yaponiya, Cənubi Koreya, yaxud da Almaniya şirkətlərinin birinin marka dəyərini də onun üzərinə gəlsək və birgə istehsal təşkil olunsa, bu, bazara asan çıxmağa imkan yaradar. Belə olarsa, artıq yenidən marketinq, tanıtım fəaliyyəti ilə bağlı pul və zaman xərcləməyə ehtiyac qalmaz. Həm də bu yolla yeni texnologiyaların daha asan tətbiqinə imkan yaranacaq. İri şirkətlər özlərinin texnologiyalarını gətirəcəklər. Azərbaycanda istənilən sahədə xarici investorlar üçün rahat bir iqtisadi düzən olmalıdır ki, onların ölkədə istehsalla məşğul olmasına imkanlar yaransın. Çox təəssüf ki, enerji sektorundan başqa, digər sahələrdə xarici investorların normal fəaliyyət göstərməsi üçün kifayət qədər problemlər var. Enerji sektoru bura daxil deyil. Çünki orada qəbul olunmuş müqavilələr parlament tərəfindən təsdiqlənir və çox yüksək qorunaqlığı var. Digər sahələrdə isə belə deyil. Ona görə də əsas məsələ xarici investorların üzərindədir ki, onlar həm soyuducu, televizor, həm də digər bu kimi texnologiyaları istehsal etsinlər. Belə cəhdlər də olub. Bir zamanlar Şamaxıda televizorla bağlı cəhd oldu, ancaq uğursuz alındı. Çünki dünyada bu texnologiya çox inkişaf edib. Artıq internetə qoşulan televizorlar daha populyardır. Buna görə də yerli texnologiyaların tətbiqinə ehtiyac var”.

**Ekspert bildirib ki, Azərbaycan təkbaşına bazara girərsə, marka tanıtımı üçün xeyli xərci çıxacaq:** “Marka tanıtımını həyata keçirmək üçün illər və on milyonlarla vəsait lazımdır ki, bir marka dəyəri yaratsınlar. Ona görə də Azərbaycanın xarici şirkətlərlə əməkdaşlığı əsas şərtdir. İstənilən xarici ölkədə biz öz məhsulumuzu satışa çıxarsaq, o bazarda, məsələn, Cənubi Koreya məhsulu varsa, insanlar həmin məhsulu seçəcəklər. Nəzərə alaq ki, bazarda Yaponiya, Almaniya kimi ölkələrin də şirkətləri olacaq. Qiymətlərə gəlincə isə bu da böyük fərq etməyəcək. Nəticədə alıcı bizim markaya üstünlük verməyəcək. Ona görə də marka dəyərini yaratmaqdansa, dünyada tanınan şirkətlərlə iş qurmaq bizim üçün asan olar. Bu yolla məhsullarımızı bazara çıxara bilərik”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Qaşıqçının qanını batıran səbəblər

## Demokratiya paytaxtları jurnalistin başına gətirilən dəhşətə görə Ərəbistanın üzərinə getmir; Qərb ərəblərdən niyə çəkinir?

**Avropa Birliyi və G-7 ölkələri jurnalist Camal Qaşıqçının itkin düşməsi ilə bağlı ortaq bəyanat yayıblar. “Əl-Cəzirə”nin xəbərinə görə, bəyanatda jurnalistin yoxa çıxmasından narahatlıq ifadə olunub, eləcə də hadisədə əli olanlar barəsində cinayət işi açılması tələb olunub.**




Oktyabrın 2-də yoxa çıxan səudiyyəli jurnalist Camal Qaşıqçının isə öldüyü artıq dəqiqləşib. Ən son olaraq Türkiyə və ABŞ mediasında Qaşıqçının qətlə yetirildiyini təsdiqləyən səs yazısı yayılıb. “Yeni Şafak” qəzetini yaydığı səs yazısında Qaşıqçının işgəncə ilə öldürüldüyü qeyd olunur. Qəzetin yazısında qeyd olunur ki, Camal Qaşıqçı konsulluqda dindirilib və bu zaman əvvəlcə barmaqları qoparılıb, ardınca isə başı kəsilib. O da bildirilir ki, konsul Məhəmməd Uteybi Ərəbistandan gələnlərin Qaşıqçını konsulluq binasında öldürməsinə etiraz edib. Ancaq gələnlər “Ərəbistana qayıtdıqdan sonra yaşamaq istəyirsənsə sus” deyirlər. Daha sonra isə konsul otaqdan çıxarılıb.

Amerika mediası isə Ərəbistandan gələn məhkəmə tibb ekspertinin Qaşıqçının cəsədini doğradığını və bu zaman qulaqlıqda musiqi dinlədiyi və otaqdakılara da belə etmələrini dediyini yazır.

Bu məlumatlar onu göstərir ki, artıq Qaşıqçının öldürüldüyü ABŞ və Türkiyə istintaqına məlumdur. Ancaq belə görünür ki, indi ər-Riyad bu qətlin hansı formada və şəraitdə baş verməsi ilə bağlı uyğun açıqlama verməyə hazırlaşır. Amerikanın CNN kanalı bir neçə gün əvvəl krallığın Qaşıqçının konsulluqda dindirilmə zamanı öldüyünə dair açıqlama verməyə hazırlaşdığı haqda xəbər yayıb.

Ancaq hər şeydən daha çox diqqət çəkən qətl hadisəsi ilə bağlı məlumatlı olan ABŞ və Türkiyə hakimiyyətinin bu məlumatı nədən açıqlamamasıdır. Xüsusən də ABŞ hakimiyyətinin bu məsələdə susqunluq nümayiş etdirməsi, əksinə, ər-Riyada məhz qətl işi ilə bağlı səfər edən dövlət katibi Mayk Pompeonun orada krala və şahzadəyə istintaqa dəstək verdikləri üçün təşəkkür etməsi birmənalı qarşılanmayıb.

Artıq dünyada belə fikirlər yayılır ki, ABŞ hakimiyyəti qətl işinin ört-basdır edilməsi üçün ər-Riyadla hansısa formada anlaşmaya gedir. Çinin “Global Tayms” qəzeti Qərb ölkələrini bu məsələdə ikiüzlü davranmaqda ittiham edib. Qəzet vurğulayıb ki, casus qalmaqalına görə Rusiya ilə diplomatik əlaqələri məhdudlaşdıran Britaniya nədənsə jurnalistin işində susqundur.

Bu arada Qərb mediası Qaşıqçını qətlə yetirən heyətin vəliəhd-şahzadə Məhəmməd bin Salmana yaxın adamlar olması haqda xəbər yayıb. Üzə çıxan fotolarda İstanbul konsulluğuna gələn 15 nəfərlik heyətdə olanlardan bir neçəsinin vəliəhdi xarici səfərlərdə müşayiət etdiyi görünür. Üstəlik, 15 nəfərlik heyəti İstanbula gətirən və geri qaytaran təyyarənin məxsus olduğu şirkətin keçən il Səudiyyə hökuməti tərəfindən müsadirə olunduğu iddia olunur.

ABŞ rəhbərliyinin bu hadisələrdə xeyli təmkinli görünməsi, xüsusən də ilk günlərdə daha qəzəbli və qəti açıqlamaların qətl barədə daha detallı məlumatlar yayıldıqdan sonra təmkinli açıqlamalara çevrilməsi şübhələrə səbəb olur. Məsələ ondadır ki, ilk günlərdə prezident Tramp bildirib ki, Qaşıqçı cinayətində əli olanlar “ağır şəkildə” cəzalandırılacaq. Ancaq sonrakı günlərdə bildirib ki, senatorların tələblərinə baxmayaraq Səudiyyə Ərəbistanı ilə bağlanmış silah müqavilələri qüvvəsində qalacaq. Çünki ABŞ imtina edəcəyi təqdirdə Ərəbistan Çin və Rusiya ilə əməkdaşlığı edə bilər.

Belə bir iddianı isə açıq şəkildə Ərəbistan hakimiyyətinə yaxın “Al-Arabiyya” telekanalının rəhbəri Türki əd-Dəxil məqalə yazaraq Ərəbistanın Vaşinqtonu təhdid etdiyi maddələri bir-bir qeyd edib. O, ər-Riyadın Amerikadan investisiyalarını geri çəkə biləcəyi, silah və texnikanı Çin və Rusiyadan almağa başlayacağı, eləcə də İran, Hizbullah, Həmasla əlaqələr qura biləcəyi, ölkənin şimalında Rusiyaya hərbi baza verə biləcəyini və daha bir sıra rıçaqları qeyd edib.

Aydın məsələdir ki, saraya yaxın olan Türki əd-Dəxilin özbaşına belə bir iddianı ortaya atması real deyil. Ən azından cəzalandırıla bilər. Aydın məsələdir ki, bu təhdidlər Səudiyyə sarayının demək istədiyidir. Ərəbistan üzərinə çox gələ biləcəkləri təqdirdə Amerikanın alternativləri ilə də əməkdaşlıq edə biləcəyinə işarə edir. Buna oxşar mesajı Qaşıqçı məsələsindən bir neçə gün əvvəl də şahzadə Məhəmməd bin Salman üstüörtülü şəkildə Vaşinqtona göndərib.

Yeri gəlmişkən, 2016-cı ildə ABŞ-da 11 sentyabr hadisələrinə görə Ərəbistana qarşı məhkəmə iddialarının önünü açan qanun layihəsi qəbul olunanda ər-Riyad eyni sərt reaksiyanı vermiş, ABŞ-dakı 700 milyard dollardan çox ərəb sərmayəsini geri çəkəcəyi ilə hədələmişdi. Maraqlıdır ki, ondan sonra sözügedən qanun layihəsi bir kənara qoyuldu.

İndi isə ər-Riyad öz mesajını media üzərindən Vaşinqtona çatdırdı. Belə görünür ki, bunun təsiri olub. Yeri gəlmişkən, dövlət katibi Pompeo ər-Riyadda olarkən Ərəbistan kralı Suriyadakı Amerikanın dəstəklədiyi kürd qüvvələrinə 100 milyon dollar bağışlayıb. Bu da bir mənada şantajın təsir etdiyini göstərir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018



# Qanpulu teoreminin isbatı

Zamin HACI
zaminhaci@gmail.com

"Bax, oğlum, onlar kilsəyə ildırımötürən taxıblar, daha məndən qorxmurlar. Küləyi, yağışı, hər şeyi izah edirlər və məndən mərhəmət diləməyi unudublar"
*(Luici Pirandello, "Qoca tanrı" hekayəsindən)*

**Bu yaxında dövlət büdcəsi hesabına mollalara maşın alıb verdik. Halbuki işin məntiqi tələb edirdi onlara dəvə verilsin. Bu söhbətin yönü ərəb səhralarına tərəfdir axı. Eyni zamanda bir məşhur aforizm var, deyir, kilsəyə ildırımötürən quraşdırılanda başa düşmək lazımdır kimin dediyi doğru idi. İndi bu iş də elə. Ruhi aləmlə, o biri dünya ilə əlləşən, göyün yeddinci qatından xəbər aparıb gətirən kadrlara avtomobil vermək hətta onların dini inanclarına sataşmaqdır. Tolerantlığımıza təhlükədir. Dəli şeytan deyir, belə getsə, biz uca şeyximiz Allahşükür müəllimə raket alıb verməliyik. Nə qədər olmasa yuxarılarla əlaqəsi, rabitəsi yaxşı qurulsun. Bu arada, Şamaxı Astrofizika Rəsədxanamız çoxdandır namaz vaxtlarını, Ramazan, Məhərrəmlik aylarının girməsini xəbər vermir. Allaha xoş getməz. Bəlkə də verirlər, mən bilmirəm.**

Uşaq isə yazının bu məqamında əlində palaz boyda bir kitab gəlib böyrümdən dürtür, deyir, ata, Harun əl Rəşid kimdir. Sən demə, bu kişinin söhbətləri "Qabusnamə" adlı kitabdan götürülüb orta məktəb dərsliyinə basılıbdır. İndi mən buna nə deyim? Necə izah edim ki, neçə nəslimizin ömrünü elə bu Harun kişinin rəvayətləri ilə, Qabusnamə nəsihətləri ilə yedilər, bütün dünya yanımızdan şütüdü keçdi, bir də ayıldıq gördük... Daha doğrusu, yatdıq gördük şirin yuxuda plov altından cücə gəzirik. Bəli, elə uşağın soruşduğu mətndə də hansı yuxu yozulmasından dəm vurulurdu, uşaq dəxi (guya biz burda klassiklərə nəzirə edirik) soruşdu, papa, bəs yozmaq nə deməkdir?

Əlqərəz, palaz-kitabı örtdüm uşağın üstünə, dedim, can bala, sən bir az yat, yuxu gör, qəzetdə işlərim vardır. İşlər isə belədir ki, Qarabağ uğrunda ölənlərin ailələrinə 11 min manat yardım verilməlidir, lakin nazirlik 4500 nəfərin ailəsinə bu yardımı vermir. Deyirlər, siz bu qan pulunu qabaqlar almısınız, lakin biz arxivi hər beş ildən bir yandırırıq, indi sənədlər bizdə qalmayıbdır, canınız çıxsın özünüz isbat edin ki, sizə pul düşür. Əla yekundur. Doğrudan da, əsgər torpaq uğrunda öldüyünü özü sübut eləməlidir, misal üçün, o biri dünyadan sənədləri toplayıb mollanın dövlətdən aldığı maşınla Qıl körpüdən keçib gəlməli, kağızları sabez müdirinə verməli, sonra təzədən qayıdıb ölməlidir. Nazirliyin, dövlətin min dənə ayrı işi vardır.

Sözgəlişi, bu əsgər ailələri Milli Məclisə də ayaq açıb qanun qayırılması işinə mane olurlar. Spikerin şikayətlərini özüm oxudum. Özü də orada son vaxtlar parlamentə oxşar cücərtilər qeydə alınırdı, məsələn, birdən görürdün qərar səsə qoyuldu, lakin keçmədi! Sanki İngiltərə parlamenti-zaddır. Doğrudur, zalda lazımi qədər deputat olmadığı üçün qərarın havada qaldığı sonradan bilinirdi, ancaq nə dəxli? Yüz il sonra parlamentimizin arxivini araşdıran tarixçilər haradan biləcəklər ki, filan qərar, qanun deputatlar çayxanada çay hortdatdığı üçün, nə bilim, nəlbəki daşıb deputatın şalvarına töküldüyünə, o biri deputatlar da fenlə şalvarı qurutduğuna görə keçməyibdir? Stenoqramda çayxana söhbəti yazılmır. Yazılır, qanun səsə qoyuldu, keçmədi.

Azadlığımız, vətənimiz uğrunda ölən əsgərlərin ailəsinə yardım məsələsinə qayıtsaq, mən bir təklif edərdim: qoy o mübahisəli 4500 ailəyə də sığorta pulu ödənsin. Lap hesab edək onlar bir dəfə haçansa, it ilində sığorta pulu alıblar, lakin sənədlər yanıb, sübut eləmək çətindir. Bəyəm Azərbaycanın dövlət büdcəsi üçün 50 milyon manat tapmaq çətindir? (4500 ailəni 11 min manata vursaq, bu qədər edir). Guya 11 min manat nə puldur ki? Onsuz qəpik-quruşdur. Bu adamlar isə ən qiymətli, daha doğrusu, ölçüyəgəlməz qiyməti olan canlarından bizim yolumuzda keçiblər (*pafosa görə oxuculardan üzr istəyirəm, ancaq bəzi məsələlər pafossuz olmur*). İndi 4500 ailəyə ikiqat qanpulu verək. Üzüyümüzün qaşı düşəcək? Mollaya maşın almaqdan pisdir?




# Seçkiöncəsi ABŞ-dan İrəvana sərt Qarabağ mesajı - Paşinyanın başı dərddə...

## Ermənistandakı seçkilərin legitimliyi tanınmaya bilər; Venesiya Komissiyası narazıdır; Ağ Ev isə Ermənistanda hansı liderin iqtidarda olmasından asılı olmayaraq, Azərbaycanla anlaşma və İranla bağlı seçim tələb edir...

**Ermənistanın baş naziri Nikol Paşinyan vəd elədiyi kimi, istefaya getdi. Ancaq baş nazir səlahiyyətlərinin icrasına davam edəcək - bir şərtlə ki, parlament onun yerinə digər şəxsi baş nazir seçməsin. O halda konstitusiyaya görə parlament buraxılacaq və uzağı 45 günə erkən seçkilər keçiriləcək.**

Hələ ki hər şey Paşinyanın qurduğu ssenari üzrə gedir. Erməni inqilabının rəhbəri nə qədər ki, reytinqi yüksəkdir, növbədənkənar parlament seçkilərinə gedib hakimiyyət çevrilişini rəsmiləşdirməyə tələsir. Necə deyərlər, istefaya gedir ki, daha güclü şəkildə öz postuna qayıda bilsin.

Ancaq bunun bir elə asan olmayacağı barədə dəlillər də az deyil. Söhbət heç də daxildə eks-prezident Robert Köçəryan başda olmaqla, Moskvaya bağlı revanşist qüvvələrdən, pusquda duran zəngin Qarabağ klanından getmir. Paşinyanın ciddiyə almalı olacağı xarici faktorlar da var.

*****

Bunlardan birincisi cəmi ayyarıma reallaşacaq erkən seçkilərin legitimliyinin Paşinyanın bel bağladığı Qərb tərəfindən nə dərəcədə legitim sayıla biləcəyi ilə bağlıdır. Ermənistan demokratik ölkə deyil, onun ayarım ərzində azad və ədalətli seçki təşkil eləmək təcrübəsi də yoxdur. Məhkəmələri müstəqil deyil, üstəgəl, kifayət qədər kriminallaşmış ölkədir. Bu üzdən bir çox yerli və əcnəbi təhlilçilər dekabr seçkilərinin beynəlxalq standartlara uyğun gəlməyə biləcəyi, Paşinyan elektoratının seçki prosesində fərqli düşünənlərə qarşı zorakılıq edəcəyi barədə xəbərdarlıqlar etməyə başlayıblar.

Öz növbəsində Avropa Şurasının Demokratiya Uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası) dekabrda növbədənkənar parlament seçkiləri keçirməyin əleyhinə olduğunu bəyan edib. "Yeni Müsavat" xəbər verir ki, komissiyada seçki məcəlləsini dəyişdirib cəmi bir aydan sonra seçki təşkil etməyi məqbul saymayıblar. Venesiya Komissiyasının rəhbəri Canni Bukikkio bu qənaətdədir.

Avropa Şurası Parlament Assambleyası (AŞ PA) isə Ermənistandakı bütün siyasi qüvvələri demokratiya və qanunun aliliyi prinsiplərinə tam şəkildə hörmət etməyə, növbədənkənar parlament seçkilərinə hazırlaşarkən tələskənliyə yol verməməyə çağırıb. Bildirilir ki, Ermənistanda Seçki Məcəlləsinə istənilən dəyişiklik Venesiya Komissiyasının təlimatlarına tamamilə uyğun gəlməlidir.

"Washington Times" qəzeti isə Ermənistandakı anarxiyadan yazıb. "Ermənistan küçələri Paşinyanın əlində alətə çevrilib. Qısa zamanda baş nazir bütün məhkəmə sistemini çökdürüb. Təəssüf ki, Paşinyan quldur taktikasına üstünlük verir, təhlükəsizlik xidmətindən, məhkəmələrdən siyasi qisas üçün istifadə edir. Paşinyanın etdikləri ağlasığmazdır. Dezinteqrasiya Avropa və Qafqaz üçün ağır nəticələrə gətirib çıxara bilər. Hakimiyyəti küçənin əlinə vermək, eyni zamanda dövlət institutlarını məhv etmək Ermənistanda ümumi anarxiyanın əsas reseptidir", - deyə nüfuzlu nəşr qeyd edib .

*****

Paşinyan və komandası üçün ikinci ciddi əngəl Qarabağ məsələsi ilə bağlı ola bilər. Maraqlıdır ki, erkən seçkilər başlar-başlamaz, ABŞ-ın Ermənistandakı səfiri, "məxməri inqilab"ın memarı saylan Riçard Millz "EVN Report" erməni nəşrinə müsahibəsində Qarabağ probleminin işğal altında olan müəyyən ərazilər qaytarılmadan həllinin mümkün olmadığını söyləyib. Bu da Ermənistanın siyasi elitasında az qala, açıq səmada şimşək şok effekti yaradıb.

**Sitat: "Ermənistan münaqişənin həlli üçün Azərbaycanla kompromislərə getməlidir. Ümid edirəm ki, Ermənistanın daxil olduğu keçid dövrü ölkənin hansı variantlarının olduğu və nəyə hazır olduğu barədə müzakirələrə gətirib çıxaracaq".** Diplomat indiyədək eşitdiklərinin narahatlıq doğurduğunu da dilə gətirərək deyib: **"Mən ilk dəfə ölkəyə gələndə çox təəccübləndim ki, ermənilərin böyük hissəsi işğal altındakı ərazilərin qaytarılmasına qarşı çıxır. Torpaqların qaytarılması "Madrid prinsipləri"nin əsas müddəalarındandır və istənilən nizamlama işğal olunmuş ərazilərin ən azı, müəyyən hissəsinin qaytarılmasını zəruri edəcək".**

Paşinyanın bu açıqlamaya reaksiyası gecikməyib. O, Millzin Qarabağ bəyanatına "artıq səlahiyyətləri bitməkdə olan səfir"in sözləri kimi yanaşmağı məsləhət görüb. **"Biz öz mövqeyimizi bildirmişik və düşünmürəm ki, o, hər hansı dəyişikliyə uğrayıb"**, - deyə Paşinyan dünən jurnalistlərə açıqlamasında bildirib.

*****

Lakin Paşinyanın iddia elədiyi kimi, Millz heç də "səlahiyyətləri bitməkdə olan" səfir kimi sırf öz mövqeyini ifadə etməyib. Bu, ABŞ-dan olan həmsədrlərə də xas mövqedir. Ondan cəmi bir neçə gün öncə isə Bakıda və İrəvanda olan ABŞ dövlət katibinin Avrasiya və Avropa məsələləri üzrə köməkçisinin müavini Corc Kent də oxşar mövqe sərgiləmiş, ölkəmizin ərazi bütövlüyünü dəstəkləmişdi.

Yəni bununla, faktiki, Vaşinqton İrəvana aydın mesaj verir ki, seçkilərdən sonra hakimiyyətdə hansı qüvvənin olmasından asılı olmayaraq, Ermənistan öz normal inkişafı və Rusiyadan asılılığını azaltmaq naminə işğal siyasətinə son qoymalı və Azərbaycanla anlaşmalı olacaq.

Qarabağ məsələsi isə Rusiya təsirinin regionda qalması üçün ən güc amillərdən biri sayılır - bunu ABŞ da yaxşı bilir. Belə görünür ki, Amerika heç olmasa, özünü demokratik sayan Paşinyan iqtidarının bu məsələdə rasional mövqe tutacağına, nəticə etibarilə regionda Moskvanın hökmranlığını azaldacağına ümid edir.

Ancaq Paşinyanın reaksiyasından görünür ki, buna o, hələ hazır deyil və sələfləri kimi torpaqları qaytarmağı düşünmür. Ola bilsin, seçki ərəfəsində bu mövzuya toxunmaq ondan ötrü təhlükəlidir. Gözləyək, görək seçkilərdən sonra Paşinyan hansı yolu seçəcək...

*****

Bu arada Pasinyan və komandası üçün daha bir ciddi problem yetişməkdədir: xəbər verdiyimiz kimi, bu həftə ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Con Bolton bölgəyə, o cümlədən Ermənistana da səfər edəcək. Artıq onun səfərinin əsas məqsədi bəllidir - region ölkələrini İranla sıx əməkdaşlıqdan çəkindirmək (**Qarabağ məsələsi də müzakirə mövzularından olacaq**). Bu, işğalçı Ermənistan üçün xüsusilə ağır tələbdir. Çünki Azərbaycandan fərqli olaraq, Ermənistanın İranla bağlı manevr imkanı yoxdur, çünki İrandan və Rusiyaya çox asılıdır. İqtisadi, energetik müstəqilliyi yoxdur.

Beləcə, Paşinyanın başı əməllicə dərddədir. Situasiyanın paradoksallığı həm də ondadır ki, seçkilərdən qalib ayrılacağı təqdirdə onun cavabdehliyi və məsuliyyəti indikindən qat-qat böyük olacaq. Çünki yuxarıda qeyd olunan üç məsələyə (**seçkilərin legitimliyi, Qarabağ - işğal məsələsi və İran**) məhz o cavabdehlik daşıyacaq.

Bu mənada ABŞ-ın təzyiqlərini müəyyən mənada kompensasiya eləmək üçün dekabrdakı seçkilərin azad, bərabər, ədalətli, keçirilməsi Paşinyan üçün xüsusi önəm kəsb edəcək...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

**Daha bir beynəlxalq təşkilatın hesabatında Azərbaycan yüksək pillədə yer alıb. Belə ki, Dünya İqtisadi Forumunun tamamilə yeni metodologiya əsasında ictimaiyyətə təqdim edilən Qlobal Rəqabətlilik Hesabatında 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb.**



# Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında yüksək pillədə yer aldı

## Dünya İqtisadi Forumunun hesabatında 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb; dövlətimiz dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb

Qlobal trendlər nəzərə alınmaqla, hesabatın metodologiyasında dəyişikliklər o qədər dərin və əhatəli olub ki, Dünya İqtisadi Forumu bu metodologiyanı yeni nəsil - "4.0" kimi təqdim edib. Bu isə onu deməyə əsas verir ki, "Qlobal Rəqabətlilik Hesabatı-2018/2019" yeni dövrün ilk hesabatıdır (Trend). Belə ki, əvvəlki illərdən fərqli olaraq hesabatın metodologiyası ciddi şəkildə dəyişdirilərək hesabata yeni indikatorlar daxil edilib. Ümumilikdə əvvəlki hesabatın 114 indikatorundan 84-ü (74 faizi) çıxarılıb, 68 yeni indikator isə daxil edilib. Beləliklə, hesabatda mövcud 98 indikatorun 70 faizi tamamilə yenidir.

Nəzərə çatdıraq ki, Azərbaycan Qlobal Rəqabətlilik Hesabatının yeni metodologiyası əsasında ilk dəfə qiymətləndirilib. Ölkəmiz ilk hesabatda Türkiyə, Serbiya, Gürcüstan, Cənubi Afrika Respublikası və Xorvatiya ilə birlikdə 7-ci onluğa daxil olmaqla 69-cu yerdə qərarlaşıb. Hesabatın 12 əsas sütun indikatorundan 7-si üzrə ölkəmizin mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Belə ki, hesabatın institutlar, infrastruktur, İKT-nin istifadə səviyyəsi, səhiyyə, əmək bazarı, biznes dinamikliyi və innovasiya potensialı sütun indikatorları üzrə Azərbaycanın mövqelərinin yaxşılaşması Qlobal Rəqabətlilik Hesabatı tərəfindən qeydə alınıb.

Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanıb. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 fazi bal almaqla dünyada ilk pilləyə yüksəlib.

Bununla yanaşı, Azərbaycanın Qlobal Rəqabətlilik Hesabatında irəlidə olduğu alt-indikatorların böyük bir qismi yeni metodologiyada nəzərə alınmayıb. Məsələn, makroiqtisadi sabitlik indikatoru üzrə ölkənin mövqeyinə mənfi təsir göstərən fakt ondan ibarət olub ki, dövlət büdcəsinin tarazlığı, ümumi dövlət borcu, ümumi milli yığım, ölkənin kredit reytinqi kimi öncül olduğumuz alt-indikatorlar yeni metodologiyada ümumiyyətlə nəzərə alınmayıb.

Yeni metodologiya əsasında hazırlanmış ilk Qlobal Rəqabətlilik Hesabatında ölkələrin reytinqinə birbaşa təsir göstərməsə də, sosial və ətraf mühit performansı üzrə indikatorlara da yer ayrılıb. Azərbaycan ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə yeni nəsil metodologiya əsasında hazırlanmış hesabatda lider mövqelərini qoruyub.

Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb. Belə yüksək nəticənin əldə olunması son illər prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatların nəticəsində mümkün olub. Həmin indikatora əsasən, Azərbaycanın mövqeyi biznesə başlamaq üçün tələb olunan günlərin sayı alt-indikatoru üzrə 17-ci, müflisləşmə normativ hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci olub.

Qlobal trendlər nəzərə alınmaqla tamamilə yeni yanaşma əsasında hazırlanmasına baxmayaraq, Azərbaycan yeni dövrün ilk Qlobal Rəqabətlilik Hesabatında bir neçə indikator üzrə yüksək nəticələr əldə edib. Bu nəticələr Azərbaycanın gələcəkdə digər indikatorlar üzrə də daha yaxşı nəticələr əldə etməsi üçün yeni imkanlar açır...

Qeyd edək ki, ümumilikdə son illərdə iqtisadi və sosial sfera üzrə beynəlxalq hesabatlarda Azərbaycanın mövqelərinin möhkəmləndiyi, dövlətimizin adının ön sıralarda yer alması müşahidə olunur.

Məsələn, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının tərtib etdiyi ənənəvi illik "Doing Business 2018» hesabatında Azərbaycan əldə etdiyi yüksək göstəricilərə görə ön sıralardan birini tutub. Konkret olaraq hesabatında Azərbaycan əmlakın qeydiyyatı sisteminin inkişafına görə 190 ölkə arasında daha bir pillə irəliləyərək 21-ci yerdə qərarlaşıb. Bu göstərici ilə isə biz Polşa, Rumıniya, Bolqarıstan, Avropa və Mərkəzi Asiya ölkələrini qabaqlayırıq.

Bundan başqa, Azərbaycan "2018-ci il İqtisadi Azadlıq" indeksində bir pillə irəliləyərək 180 ölkə arasında 67-ci yerdə qərarlaşıb. "Heritage Foundation" təşkilatının hazırladığı hesabatda bildirilir ki, son 10 il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycan ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq, Asiya-Sakit okean regionunda 43 ölkə arasında 14-cü yerdə qərarlaşıb. Bundan əlavə, indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələrlə müqayisədə ön sıralarda yer tutub. Həmçinin, Rusiya da daxil olmaqla, bir sıra MDB ölkələrini qabaqlayıb.

Habelə, Dünya İqtisadi Forumunun nüfuzlu indeksi sayılan "İnklüziv İnkişaf İndeksi 2018"-də Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşıb. Dünya İqtisadi Forumunun İnklüziv inkişaf hesabatında Azərbaycan Litva və Macarıstan istisna olmaqla digər bütün inkişaf etməkdə olan ölkələri geridə qoyub.

Həmçinin Dünyanın nüfuzlu "U.S. News & World Report" jurnalının 2018-ci il üçün tərtib etdiyi ən yaxşı ölkələrin reytinq cədvəlində Azərbaycan 5 pillə irəliləyib.

Digər postsovet ölkələri, o cümlədən Gürcüstan və Ermənistan isə bu siyahıya, ümumiyyətlə, düşə bilməyib. Siyahıda İsveçrə, Kanada, Almaniya, Böyük Britaniya, Yaponiya yüksək yerləri tutub. ABŞ 2017-ci ilə nisbətən bir pillə geriləyərək 8-ci olub. Azərbaycan postsovet ölkələrindən Ukrayna, Qazaxıstan, Belarusdan irəlidədir.

"The Happiness Research Institute"nin ənənəvi - "Dünyanın ən xoşbəxt ölkələri" siyahısında da ölkəmiz var. Azərbaycan 156 ölkənin adının yer aldığı siyahıda 87-ci yeri tutub. Siyahıda Azərbaycan Cənubi Qafqazda liderdir.

İşsizlik, səfalətlə boğuşan bədnam qonşularımız Ermənistan geriləyib - ötən il 121-ci yerdə olsa da, bu il 129-a düşüb...

Son illərdə Azərbaycanda iqtisadi-sosial sferada həyata keçirilən islahatların nəticəsinin beynəlxalq hesabatlarda da özünü göstərməsi uğurlu haldır. Bu təşkilatların, institutların rəyləri beynəlxalq aləmdə ölkələrə yanaşmalarda, dövlətə investisiyaların cəlb edilməsində mühüm rol oynayır.

**❑ M.MAHRIZLI**
**"Yeni Müsavat"**

# Bir ölkədə iki teatra nə ehtiyac?..



**Hüseynbala SƏLİMOV**

**Söz özünü İrəvandakı rus dram teatrının bağlanacağı haqqındakı xəbərlərdən götürsə də, əlbəttə, bizim sırf teatr mövzusunda müzakirə - mükalimə açmaq fikrimiz yoxdur; həm ona görə ki, klassik anlamda teatr məsələsi bizim predmetimiz deyil, həm də ki, axmaq hayların dərdi bizə qalmayıbdır.**

Elə "teatr" sözünü də bir qədər fərqli anlamda işlədəcəyik: hərbi politologiyada bu söz tam hüquqlu bir termin olsa da digər sahələrdə onu daha çox məcazi, bir az da ironik mənada işlədirlər.

Qərəz, ötən dəfələrdə də yazmışdıq ki, Ermənistanın siyasəti "bir aktyorun teatrı"nı xatırladır və getdikcə ona daha çox bənzəyəcək, çünki N.Paşinyan cənabları hələki onu sevən kütlənin qarşısına tək çıxır.

Özü üçün hələ də etibarlı komanda təşkil etmək fikrində olmayan bu adam çox güman ki, gələcək fəaliyyətində də bu stilinə sadiq qalacaqdır - arxasında güclü siyasi təşkilat dayanmayan və özünün sadiq və etibarlı kadrları olmayan siyasətçi meydana atılanda istər-istəməz kütlənin əsirinə çevrilir, çünki onu yalnız kütlənin dəstəyinə və təzyiqinə görə lider kimi qəbul edirlər, əslində isə o, heç bir siyasi qrupun şəksiz-mübahisəsiz lideri olmur.

Həmin "lider" özü də bunu başa düşür və hər addımda küçə və meydanlara apelyasiya etməyə, bir azacıq qəliz vəziyyət yaranan kimi mitinq çağırmağa tələsir...

Prinsipcə, bu həftə Ermənistan üçün, necə deyər, mühüm həftə olmalı idi, çünki baş nazir məhz bu həftə ərzində istefa verəcəyini bildirmiş və hamı kimi parlament seçkilərinə hazırlaşacağını bəyan etmişdi. Biz bu sətirləri yazarkən hələ bu xüsusda hər hansı bir informasiya olmamışdı və yalnız axşam saatlarında xəbər gəldi ki, Paşinyan artıq istefa veribdir.

Məsələnin məğzi heç bunda da deyildi, söz verilmişdisə, razılıq əldə edilmişdisə, deməli istefa da olacaqdı, amma necə istefa, hansı şərtlər və hansı razılaşmalar çərçivəsində?

Bu günlərədək N.Paşinyanın cəbaları əsasən onunla bağlı idi ki, baş nazir postu boş qalsın və o, seçkidən sonra heç bir problemsiz təzədən həmin posta əyləşə bilsin. Bizim Ermənistandakı seçkilərlə bağlı hansısa faktımız, hətta tutarlı iradımız yoxdur; bəli, ilk yüz günlükdən sonrakı mitinq, eləcə İrəvandakı mer seçkiləri, o cümlədən də həmin seçkilərdə əski hakim partiyanın iştirak etməməsi, hətta R.Koçaryanın baş nazirlik uğrunda mübarizəyə qatılmaq istəməməsi o deməkdir ki, N.Paşinyanın dəstəyi yetərincə güclüdür və buna bir söz yoxdur. Amma ən azı nəzəri baxımdan Paşinyan da qəbul etməli idi ki, seçkinin nəticələri başqa cür, onun gözlədiyindən fərqli də ola bilər. O isə hətta bu cür fikri özünə yaxın belə buraxmır, sanki baş nazir kürsüsü yalnız onun üçün yaradılıb.

Bəlkə də nəinki bizim, hətta cəmi Azərbaycan mediasının Paşinyan cənablarını bu qədər diqqətdə saxlaması oxucuya təəccüblü görünür, hətta onu yorur da. Amma bizim də bu çabalarımızın bircə məqsədi var: Qarabağ. Ermənistandakı proseslərі detallarına qədər izləməyimiz də elə bununla bağlıdır: bilmək istəyirik ki, axır bu siyasi küləklər Ermənistanı hara aparacaq və biz hansı nəticəyə gəlməli olacağıq?..

Biz bir siyasi təhlilçi kimi Düşənbədə hər hansı danışıqdan və ya razılaşmadan ciddi şəkildə danışmağı belə özümüzə rəva görmürdük. Gəl ki, digər həmkarlarımız bunda israr etdiklərindən biz də müəyyən razılaşma əldə olunduğunu şərti olaraq qəbul etdik. Amma sonra nə oldu? Erməni baş naziri "frankofoniya" adlı oyunbazlıqda çıxış edərkən yenidən aranı qatdı, ağzına gələnləri danışmağa başladı və bir daha məlum oldu ki, bu adam sabit fikirli deyil, gündə bir fikrə düşür, həm də təkcə ona görə yox ki, kütlənin, cəmiyyətin və ya tərəfdarlarının xoşuna gəlmək istəyir, həm də ona görə ki, o, da, sadəcə, ermənidir və illərlə elə ona da axmaq fikirlər və sərsəm "ideya"lar təlqin olunubdur...

Düzdür, bu vaxta qədərki "müəyyənlik" də - S.Sarqsyanın daimilik müharibə ritorikası, ən başlıcası da təkəbbürü də bizi üzürdü. Amma indi oxşar hala dözmək daha da çətindir, çünki biz hələ götür - qoy edir, necə və nə cür siyasət aparmalı olduğumuzu düşünürük. Bu məqamdasa inqilabçı baş nazir ölkəsi və özü haqqında demokratik dövlət və demokratik lider imici yaradır ki, bu da heç halda bizim maraqlarımıza cavab verə və yaxud da bizi qane edə bilməz...

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

# "TAP və TANAP layihələri vaxtında yekunlaşacaq"

## Fikrət Yusifov: "Bu, Azərbaycanı Avropaya daha da yaxınlaşdıracaq"

**Azərbaycanın, qardaş Türkiyənin və Avropanın enerji təhlükəsizliyi üçün mühüm önəm kəsb edən Cənub Qaz Dəhlizi və onun mühüm tərkib hissələri kimi TANAP və TAP geosiyasi gündəmdə öz yerini saxlayır. Layihələrlə bağlı gedən işlər, son durum və onların nə zaman başa çatacağı maraq doğurur.**

**Bununla bağlı fikirlərini aldığımız sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov "Yeni Müsavat"a bunları bildirdi:** "TAP və TANAP layihələri ilə bağlı son durumu ən yaxşı 9 ayın yekunları ilə bağlı Nazirlər Kabinetinin toplantısında cənab prezident dəyərləndirdi. Ölkə başçısının çıxışında konkret olaraq deyildi ki, bu layihələr üzrə işlər planlaşdırıldığı kimi gedir. Hamıya məlumdur ki, bu ilin mayında Cənub Qaz Dəhlizi layihəsinin açılışı oldu. Ondan bir ay sonra Türkiyədə TANAP xəttinin açılışı oldu. Böyük transmilli və dəyəri 45 milyard olan bu layihənin uzunluğu 3500 kilometrdir, 7 dövlətin 11 iri şirkətin iştirakı aparılır. Artıq layihənin ikinci hissəsi, yəni TAP xəttinin istifadəyə verilməsi qalır. Azərbaycan tərəfin fikri bundan ibarətdir ki, biz plan üzrə nəzərdə tutulan bütün işləri elə aparmalıyıq ki, gələn ilin ortalarından etibarən "Şahdəniz 2" yatağımızdan qaz Avropaya çatdırılsın. Bu günə olan məlumat, eləcə də apardığım araşdırmalar işin durumu ilə bağlı onu deməyə əsas verir ki, bütün bu layihənin reallaşdırılması qrafiklə nəzərdə tutulmuş vaxtda başa çatdırılacaq. Yaxınlarda Xəzərin hüquqi statusu ilə bağlı illər uzunu aparılan danışıqlara son qoyuldu və konvensiya imzalandı. Ondan öncə də Rusiya və Türkmənistan arasında əldə olunmuş razılığa əsasən Türkmənistan tərəf Xəzər dənizinin dibi ilə öz qaz ehtiyatlarını Avropaya çıxaracaq. Burada da təbii ki, Azərbaycan tərəfi türkmən qazının Cənub Qaz Dəhlizi ilə Avropaya çıxarmaq şansına yiyələndi. Bu da il ərzində 30 milyard kubmetr qazın əlavə olaraq bu xətt vasitəsilə Avropa çatdırılması deməkdir. Gələcəkdə İran və İraq qazının da bu xətt vasitəsilə Avropa çatdırılması perspektivi ortadadır".




**İqtisadçı ekspertə görə, bütövlükdə xəttin tam reallaşdırılması Azərbaycana siyasi və iqtisadi dividentlər gətirməklə yanaşı, eyni zamanda Avropa üçün böyük əhəmiyyət kəsb edir:** "Çünki Avropa qazın bu xəttə yönləndirilməsi ilə bağlı qaz təchizatında ciddi şaxələndirməyə nail olacaq. Ən son yenilik bundan ibarətdir ki, prezident bir məsələ ilə bağlı anons verdi. Dedi ki, biz təkcə qazın, yəni Xəzər qazının Avropaya çatdırılması ilə kifayətlənmək istəmirik, eyni zamanda bu layihə başa çatandan sonra Avropada qazın paylanması prosesində iştirakçı olmaq istəyirik. Bu, artıq Avropadakı infrastrukturda Azərbaycanın iştirakı deməkdir. Qazötürücü yerlərdə Azərbaycanın olması Avropa-Azərbaycan əməkdaşlığını bir qədər də dərinləşdirəcək. Bu tərəfdaşlıqdan tərəf müqabilinə qədər apara biləcək addım olacaq ki, bunun da anonsunu biz ilk dəfədir eşidirik".

**Sabiq nazir TAP layihəsi ilə bağlı işlərin tam başa çatmamasının onun yubanması kimi qəbul edilməsinin əleyhinədir:** "TANAP başa çatıb və açılışı olub. Bundan öncə də Cənub Qaz Dəhlizinin Azərbaycan hissəsi başa çatmışdı. İndi qalan TAP xəttidir, yəni Cənub Qaz Dəhlizi layihəsinin üçüncü hissəsi. O da qrafiklə gələn ilin ortalarında istifadəyə verilməlidir. Bu günlər əldə olan məlumatlar, ölkə başçısının verdiyi son bəyanatlar bunu deyir. Yaxınlarda xarici işlər nazirimiz İqtisadi Əməkdaşlıq Təşkilatının Nyu-Yorkdakı tədbirində çıxışı zamanı bildirdi ki, biz 2020-ci ilə qədər "Şahdəniz" qazının Avropaya çatdırılmasını tam təmin edəcəyik. Bu, artıq o deməkdir ki, gecikmələrə yol verilmir. Bu barədə, ümumiyyətlə, nəsə olduğunu nə görməmişəm, nə də eşitməmişəm. Gecikmə olsaydı, ölkə başçısı müşavirədə bunları deməzdi. İşlər qaydasında gedir və hər şey vaxtında başa çatacaq. Heç də asan gəlməsin, bu, olduqca böyük, qlobal işdir. Çox ağır işdir. Əsrin ən böyük energetika layihəsidir. İndiyə qədər heç vaxt belə layihə olmayıb. Bundan sonra belə, yaxud bundan böyük layihənin olacağını indidən söyləmək mümkün deyil. Bu layihə təsəvvür etdiyimizdən 1-2 ay tez başa çata bilər. Amma bir ay sonra baş çatmayacağı dəqiqdir. Çünki qarşıda çoxlu işlər var və işlər də qrafik üzrə gedir. Elə şeylər var ki, onları tələsdirmək mümkün deyil".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Gürcüstanda heç bir namizəd prezidentlik iddiasından çəkilmədi

## Seçkilərdə bülletendə 25 namizədin adı olacaq

**Gürcüstan Mərkəzi Seçki Komissiyasında (MSK) 25 nəfərin prezidentliyə namizədliyi rəsmi qeydiyyata alınıb. Bu barədə Gürcüstan MSK-nın mətbuat katibi Anna Dolidze məlumat verib. O deyib ki, mövcud qanunvericiliyə görə, prezidentliyə namizədlər səsverməyə 12 gün qalanadək, yəni oktyabrın 16-da öz namizədliyini geri götürə bilərdi. Lakin 16 oktyabradək namizədlərin heç biri müvafiq məsələ ilə bağlı MSK-ya müraciət etməyib. Odur ki, seçki bülleteninə 25 namizədin hamısının adı daxil ediləcək.**



Gürcüstanda prezident seçkiləri oktyabrın 28-də keçiriləcək. Prezidentliyə 25 namizəddən 19-u siyasi partiyalar, 6-sı isə təşəbbüs qrupları tərəfindən irəli sürülüb.

Prezidentliyə namizədlər sırasında David Bakradze ("Avropa Gürcüstanı-Azadlıq uğrunda hərəkat"), Mixail Saluaşvili (Ədalətin bərpası -"Xalqın səsi"), Zviad Baqdavadze ("Vətəndaş platforması-Yeni Gürcüstan"), Şalva Natelaşvili ("Gürcüstan Leyboristlər Partiyası"), keçmiş xarici işlər naziri, birləşmiş müxalifətin namizədi Qriqol Vaşadze (Vahid Milli Hərəkat Partiyası), keçmiş xarici işlər naziri Salome Zurabişvili (seçicilərin təşəbbüs qrupu, hakim partiyanın dəstəklədiyi namizəd), İrakli Qorqadze (Gürcüstanın Azadlığı Uğurunda Hərəkat), David Usupaşvili (Azad Demokratlar), Zurab Caparidze (Qirçi) və digərləri var.

Seçkiyə 10 gün qalır və namizədlər sırasında 3 nəfər favorit sayılır və mübarizənin əsasən onlar arasında gedəcəyi gözlənilir. Onlardan biri hakimiyyətin dəstəklədiyi namizəd-seçicilərin təşəbbüs qrupundan müstəqil namizəd kimi irəli sürülən Salome Zurabişvilidir. Biri Qriqol Vaşadze, digəri isə David Bakradzedir. Əsas mübarizənin bu namizədlər arasında keçəcəyi proqnozlaşdırılır.

Gürcüstan Azərbaycanın yaxın qonşuluğunda yerləşən və sıx əlaqələri olan ölkə olduğu üçün burada hakimiyyətə hansı qüvvənin gəlməsi, ölkəyə rəhbərliyi kimin etməsi bizim üçün də maraqlıdır. Salome Zurabişvilinin seçki kampaniyasında seçicilərlə görüşlərində, çıxışlarında ermənilərə özünü daha yaxın göstərdiyi, azərbaycanlılara isə heç də isti münasibətinin olmadığı üzə çıxıb. Odur ki, siyasi analitiklər qonşu Gürcüstanda David Bakradzenin və ya Qriqol Vaşadzenin prezident seçilməsinin oradakı soydaşlarımızın marağına uyğun olduğunu düşünürlər.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ermənistanda çalxalanmalar başladı

## Nikol Paşinyanın baş nazirlikdən istefası yeni situasiya yaradıb; **politoloq:** "Qarşıdakı ayyarım ərzində çox maraqlı və gərgin proseslər cərəyan edəcək"

**Bir aya yaxın mitinqlərdən sonra mayın 8-də Ermənistanın baş naziri seçilən Nikol Paşinyan oktyabrın 16-da vəzifəsindən istefa verib. Bu barədə o, ölkənin İctimai Televiziyasında çıxışında bildirib. Paşinyanın bu addımı ölkə parlamentinin tezliklə buraxılması və növbədənkənar seçkilərin keçirilməsi məqsədini güdür. O, İTV-də çıxışında deyib ki, növbədənkənar seçkilərə kimi öz vəzifələrini icra edəcək.**



Paşinyan eyni zamanda parlament seçkilərində bütün siyasi qüvvələrə uğur arzulayıb. Onun sözlərinə görə, hökumət seçkilərdə xalqın ifadə azadlığını təmin edəcək. Bununla yanaşı, Paşinyan insanların etimadını və haqlı gözləntilərini doğrultmadığına görə üzrxahlıq edib: "Həyəcanlı andır, çünki inqilab mərhələsinə son qoyur və yeni mərhələyə daxil oluruq. Beş aylıq işimə yekun vuraraq hamıya sonsuz dəstəyə görə minnətdarlıq edirəm və kimi təəssüfləndirmişəmsə, üzr istəyirəm".

Daha öncə baş nazir bildirmişdi ki, parlament seçkiləri dekabrın 10-da baş tutacaq. Beləliklə, növbəti 15 gün ərzində hələlik fəaliyyətdə olan parlament iki dəfə baş naziri seçməməlidir. Qanunun tələbinə görə, parlament iki dəfə baş naziri seçə bilməzsə, buraxılır və yeni seçkilər təyin edilir. Konstitusiyaya görə, seçkilər parlamentin buraxılmasından sonra ən tezi 30 gün sonra, lakin 45 gündən gec olmayaraq keçirilməlidir.

Bəzi siyasi analitiklər, həmçinin erməni politoloqlar hesab edir ki, Paşinyanın rəqibləri, əsasən də əlində böyük kapitalı və ordu daxilində güclü dəstəyi olan Qarabağ klanı onun istefasından istifadə edib aranı qarışdıra və geri dönüşünün qarşısını ala bilərlər. Hətta parlamentdə çoxluqda olan Serj Sərkisyanın Respublika Partiyasının və Daşnaksütyun deputatlarının öz sıralarında yeni baş nazir seçib hakimiyyəti ələ keçirmələri də istisna edilmir.

**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Paşinyan, hər halda, bu cür ehtimalları da götür-qoy edib və təminatı olmasaydı istefa verməzdi:** "İstefa taktiki xarakter daşıyır. Paşinyan erkən parlament seçkisini dekabrın əvvəlində keçirmək istəyir. Ancaq bunun üçün konstitusiyaya görə, birincisi, baş nazir istefa verməlidir, ikincisi, parlament 14 gün ərzində yeni baş nazir seçməməlidir. Bu zaman seçki qanununa görə, parlament avtomatik yeni parlament seçkisi təyin etməlidir. Nikol Paşinyan 14 günlə bağlı qəti təminatı olmasaydı, istefa verməzdi. Parlamentdəki partiyalar Paşinyanın yerinə başqasını baş nazir seçməyə risk etməyəcəklər. Çünki əks halda, Paşinyan tərəfdarlarını küçəyə tökəcək. Ermənistan parlamenti və əksər partiyalar Paşinyanın gəlişindən sonra küçədən qorxur.

Paşinyanın 5 aylıq hakimiyyətinə, sadəcə, ara verildi. Paşinyan küçədən qazandığı reytinqi hələ itirməyib, elə ona görə parlament seçkilərini tez keçirməyə çalışır. Korrupsiya ilə mübarizə ona xal qazandırdı. İqtisadi islahat və xarici siyasətdə isə öyünüləsi uğuru yoxdur. Tam əksinə, Rusiya ilə münasibətlərdə inamsızlıq yaranıb, Qərbdən gözlədiyi siyasi və maliyyə dəstəyini isə əldə edə bilməyib".

**Politoloqun sözlərinə görə, Ermənistanda qarşıdakı ay yarım ərzində çox maraqlı və gərgin proseslər cərəyan edəcək:** "Yenilər köhnələri, o cümlədən "Qarabağ klanını" həm hakimiyyətdən, həm də müxalifətdən uzaqlaşdırmağa çalışacaq. Paşinyan birincini həll edib, indi ikincini reallaşdırmalıdır. Bunun Dağlıq Qarabağ münaqişəsinin həllinə nə kimi təsiri olacağı sualına isə gələn ilin əvvəlindən aydınlıq gəlməyə başlayacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

# "Türkiyə artıq əvvəlki deyil və olmayacaq"

## Əhəd Məmmədli: "Tramp sifətini qorudu, Ərdoğan da istədiyini aldı"

**Ötən həftə Türkiyənin amerikalı keşiş Endryu Bransonu azad etməsi hələ də müzakirə mövzusudur. Qardaş ölkənin ən doğru qərar verdiyini dilə gətirənlər əksəriyyət təşkil edir. Amma bununla belə, rəsmi Ankaranın ünvanına xoşagəlməz fikirlər səsləndirənlər də var.**

Türkiyənin bu qərarı gec verdiyi barədə fikirlər də var. Arqument kimi də keşişin "ev dustaqlığı"nda olduğu müddətdə Qərbin Türkiyəyə təzyiqləri nəticəsində ölkəyə milyardlarla məbləğdə dəyən zərər önə çəkilir. Rəsmi Ankaranın Amerika qarşısında geri çəkildiyi ilə bağlı gedən müzakirələr isə sözün həqiqi mənasında qarşıdurmalar yaradır. Türkiyənin burada uduşlu olduğunu düşünənlər çoxluq təşkil edir. Onlar Türkiyənin tam zamanında ən doğru qərar verdiyini qeyd edirlər.



**Politoloq Əhəd Məmmədli Bransonun boşuna azad edilmədiyini düşünür:** "Türkiyənin geri çəkildiyi siyasətdən, politologiyadan anlamayan və yaxud qərəzli insanlar deyə bilərlər. Ölən rus pilotun ailəsinə "Qüsura baxmayın" məktubunda da eyni adamlar eyni sözlər deyirdi. Sonra nə oldu? Bunun əvəzində Türkiyə Afrinə girdi, Suriya müxalifətinin əsas dayağına çevrildi. Branson məsələsində də eyni adamlar eyni sözlər deyirlər. Amma Branson təhvil verilməyəndə deyirdilər ki, bir keşişə görə o boyda Amerika ilə münasibətləri korlamaq olmaz. Branson elə-belə təhvil verilməyib. Təbii ki, dövlətlərarası razılaşma nəticəsində azadlığa buraxılıb. Pompeo da məhz bu razılaşmanın əsasında Türkiyəyə səfər edir. Branson buraxılan gün Ərdoğan Menbic əməliyyatının mesajlarını verdi. Deşifrə olunan və iki il türk həbsxanasında olan agent-keşiş artıq Türkiyəyə lazım deyildi. Seçkilər öncəsi Bransonun azad edilməsi Trampa çox lazım idi. Məhz buna görə də Tramp məsələnin bu qədər üstünə getdi. Bransonun Amerikaya təhvili ilə Tramp sifətini qorumuş, Ərdoğan da istədiyini almış oldu. Keşişin təhvili ilə dollar lirəyə münasibətdə aşağı enməyə başladı. Menbiclə sərhəddə Türkiyə qoşun yığmağa başladı. Tətbiq olunması nəzərdə tutulan sanksiyalar dayandırıldı. Amerikada həbsdə olan "Xalq bank"ın sədr müavininin Türkiyəyə ekstradisiya məsələsi qalxdı. Türkiyə ilə ABŞ arasında həlli mürəkkəb görünən problem təbii ki, PKK-YPG-YPD-dir. Türkiyə bu terror təşkilatını birdəfəlik məhv etməyə israrlıdır. Amerika bunu anlayır, Türkiyə güclələndikcə daha da anlayır. Türkiyə-ABŞ münasibətlərinin əvvəlki strateji münasibətlərə dönməsi ancaq bir şərtlə mümkündür ki, bu münasibətlər daha bərabərhüquqlu müstəvidə qurulacaq, ABŞ Türkiyəyə kiçik tərəfdaş gözü ilə baxmayacaq. Başda Amerika olmaqla hamını narahat edən də məhz budur. Türkiyə artıq əvvəlki Türkiyə deyil və olmayacaq. Siyasətdən, politologiyadan anlayışı kasad olan müstəmləkə aydınları nəhayət anlamalıdırlar ki, dövlətlərarası münasibətlər məhəllə münasibətləri deyil. Burada geri çəkildi, qorxdu söhbətləri yoxdur, burada intensiv danışıqlar, razılaşmalar münasibətləri var. 240 milyard bir keşişə görə getməyib. 240 milyardın getməsi də, Gəzi olayları da, hərbi xunta da, PKK terroru da hamısı Türkiyənin böyüməsinin qarşısının alınması üçün edilib. Bunu xalq anlayır, anlamaq istəməyənlər Türkiyəni keçmişdəki kimi Amerikanın "arxa bağçası" görmək istəyən müstəmləkə aydınlarıdır. Müstəmləkə aydınları Türkiyənin uğurlu gələcəyidir. Keşiş üç il bundan əvvəl buraxılsaydı, Amerika bu belə də olmalıdır düşüncəsi ilə Türkiyəyə saldırmağa davam edəsi idi. Amma indi elə deyil və daha elə olmayacaq. Türkiyə ilə ABŞ arasında bərabərhüquqlu münasibətlər olacaq. Amerikanın yeni Türkiyə ilə yenidən münasibətləri qurulur və bu münasibətlər keçmişdən fərqli olaraq bərabərhüquqlu müstəvidə qurulur. Zatən FETÖ, PKK, hərbi xunta, İranla münasibətlər, S-400 alınması və s. bəhanələr idi. Türkiyəyə saldırmaq üçün bunları etdilər. Son bəhanə ilə də Türkiyəyə qarşı iqtisadi müharibə elan etdilər. Amma əsas odur ki, istədiklərinə nail ola bilmədilər".

**Politoloqa görə, Trampın Ərdoğana təşəkkür etməsi Türkiyənin uduşudur:** "İqtisadi müharibə dönəmində Amerika Türkiyə qarşısında neçə tələb qoydu və neçəsi yerinə yetirildi? Heç biri yerinə yetirilmədi. Bransonun azad edilməsinə görə Trampın Ərdoğana təşəkkürü o deməkdir ki, Bransonu tələb nəticəsində deyil, razılıq əsasında geri ala biliblər. Bu razılaşma da çox güman ki, Menbicə hərbi əməliyyatla bağlıdır. ABŞ dövlət katibi Pompeonun Türkiyəyə səfərindən sonra razılaşmanın nələrdən ibarət olduğunu daha geniş mənzərədə görəcəyik. Türkiyə Suriyada Amerikaya həm də Rusiyanı dayandırmaq üçün lazımdır. İdlib məsələsində əbəs yerə Amerika, Avropa Türkiyənin yanında olmadı. Afrin, İdlib məsələlərində nədənsə müstəmləkə aydınları Amerika və Rusiyanın Türkiyə qarşısında geri çəkildiyini demirlər, lakin Türkiyənin bəzi manevrlərini o dəqiqə geri çəkilmək kimi təqdim etməyə çalışırlar. Çünki qərəzlidirlər. Çox güman ki, F-35 problemi də həll ediləcək. Tramp ilk öncə biznesmen, sonra prezidentdir. Pompeonun səfərindən gözləntilərim var. Türkiyə ABŞ-a, ABŞ da Türkiyəyə lazımdır. Unutmayaq ki, bu iki derjava NATO-da müttəfiqdirlər. Branson bir piyada idi, özü də istifadə edilən, müddəti bitmiş piyada. Şahmatda qambit deyilən bir gediş var. Bir fiqurunu daha böyük fiqur almaq üçün verirsən. "Qüsura baxmayın" məktubu, Branson da həmin bu qambitlər idi ki, rəqibdən daha böyük fiqurlar alınsın. Afrinə, Menbicə görə "Qüsura baxmayın" məktubunu da yazmaq olar, deşifrə olunmuş agent-keşişi təhvil vermək də".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Kürd məsələsi Suriya münaqişəsinin sonuncu halqası olacaq

## Ər-Riyadın kürdlərə yardımı Ankaranı qəzəbləndirib, Ərdoğan ABŞ dövlət katibinə xəbərdarlıq edib

**Səudiyyə Ərəbistanı hökuməti Suriyada kürdlərin (Suriya Demokratik Qüvvələri - K.R.) nəzarət etdiyi bölgələrin təmiri və yenidən qurulmasına 100 milyon dollar ayırıb. Ər-Riyadın Suriya kürdlərinə yardım ayıracağı ilə bağlı məlumatlar daha əvvəl də yayılıb, ancaq son qərar məhz Qaşıqçı olayları ilə eyni vaxta təsadüf etdiyi üçün ciddi tənqidlərə səbəb olub.**




Məlum olduğu kimi, oktyabrın 16-da ABŞ dövlət katibi Mayk Pompeo Səudiyyə Ərəbistanına səfər edib. Burada o, kral Salman bin Əbdüləziz, eləcə də ölkənin əsas adamı olan vəliəhd-şahzadə Məhəmməd bin Salmanla görüşüb. Krallığın maliyyə yardımı isə məhz bu görüşlərlə eyni təqvimə təsadüf etdiyi üçün ciddi tənqidlərə səbəb olub. Bir çoxları bu yardımı məhz Qaşıqçı cinayətinin ört-basdır edilməsi üçün ər-Riyadın Vaşinqtona rüşvəti adlandırırlar.

"Nyu York Tayms" qəzetinə açıqlama verən amerikalı dövlət rəsmisi 100 milyonun məhz bu ərəfədə ayrılmasının təsadüfi olmadığını bildirib. Prezident Trampın İŞİD-ə qarşı mübarizə üzrə xüsusi təmsilçisi polkovnik Brett Makqurk isə bu ittihamları rədd edib. O deyib ki, Ərəbistan hökuməti Suriyanın şimalında İŞİD tərəfindən dağıdılmış bölgələrin təmiri üçün 100 milyon ayrılması haqda qərarı avqust ayında qəbul edib, ancaq ödəmə payıza təsadüf edib.

Ər-Riyadın bu addımının məhz indiki dövrə təsadüf etməsinin bir neçə alt səbəbləri də var. Məsələ ondadır ki, ötən həftə ABŞ prezidenti açıq şəkildə ərəblərin ABŞ-ın bölgədə hərbi qüvvə saxlamasına görə daha çox ödəməli olduğunu bildirib. Hətta bildirib ki, ABŞ hərbi gücü olmasa ərəblər İran qarşısında çox az müddət davam gətirə bilərlər. Yeni Vaşinqton artıq uzun müddətdir ki, bu pulu tələb edirdi, ancaq ərəblər uzadırdılar. İndi isə yaranmış situasiya ərəbləri, yəni konkret olaraq Səudiyyə Ərəbistanı hakimiyyətini ödəməni etməyə məcbur qoyub. Çünki Qaşıqçı olayı ər-Riyadı Qərb qarşısında xeyli gözükölgəli edib.

Ərəblərin kürdlər üçün pul verməsi aydın məsələdir ki, Türkiyəni qəzəbləndirəcək. Çünki bilindiyi kimi, Ankara Suriyada fəaliyyət göstərən və ABŞ-ın dəstəklədiyi YPG-ni terror təşkilatı hesab edir və onlara qarşı iki dəfə genişmiqyaslı əməliyyat keçirib. Məhz buna görə ABŞ və Türkiyə arasında ciddi soyuqluq başlayıb. Ancaq görünən odur ki, ər-Riyad üçün hazırda əsas məsələ Vaşinqtonla dil tapmaqdır.

Məsələ ondadır ki, Vaşinqton hazırda Suriyada kürdləri açıq şəkildə dəstəkləyir. Vaşinqton kürdlərin Suriyada İraqda olduğu kimi muxtariyyət və silahlı gücə sahib olan siyasi təşkilata çevrilməsinə çalışır. Yeri gəlmişkən, 4 il əvvəl Amerika-kürd ittifaqı İŞİD-in Suriya-Türkiyə sərhədində yerləşən Kobaniyə 5 ay davam edən hücumunun qarşısını almış və ilk dəfə İŞİD-i ciddi məğlubiyyətə uğratmışdı. Bununla da Yaxın Şərqdə ikinci böyük kürd-Amerika ittifaqı faktiki olaraq qurulmuşdu. Kürdlər sonrakı illərdə də Suriyada Pentaqonun quru qüvvələri kimi fəaliyyət göstərərək İŞİD-ə qarşı mübarizədə quru əməliyyatlarını aparıblar. Havadan isə ABŞ təyyarələri onları dəstəkləyib. Məhz bu ittifaq nəticəsində kürdlər İŞİD-in Suriyadakı paytaxtı Raqqanı ötən il ələ keçirib. Vaşinqton da buna görə kürdlərə "borclu qalmayıb". Ötən illərdə Pentaqon kürdlərə ən müasir silah və quru qoşunları üçün əməliyyat texnikası bağışlayıb.

Kürdlər isə Suriyada Fərat çayının şərq sahillərinə iddia edir. Qərb sahilində qalan yeganə ərazi Menbic bölgəsidir ki, Türkiyə və ABŞ arasında anlaşmaya əsasən bu rayon dekabra qədər kürd qüvvələrindən təmizlənəcək. Ancaq Vaşinqton açıq şəkildə bildirir ki, kürdlərin siyasi status almasına dəstək verəcək. Hələlik Türkiyə, İran və Suriya bu plana razı deyil. Rusiya isə konkret mövqe bildirməsə də, kürd məsələsində o qədər də inadkar görünmür.

Bir neçə gün əvvəl isə Suriyanın xarici işlər naziri bildirib ki, İdlib prosesi başa çatdıqdan sonra növbəti əməliyyat Suriyanın şərqində kürdlərə qarşı olacaq. Çünki Bəşər Əsəd və Suriya iqtidarı ölkə ərazisinin 25 faizdən çox hissəsini kürdlərə güzəştə getməyə hazır deyil. Üstəlik, bu məsələdə Türkiyə və İranın da mövqeyini bilir.

Suriya və kürd mövzusu oktyabrın 17-də Türkiyəyə gələn ABŞ dövlət katibi Pompeo ilə Türkiyə rəsmiləri arasında görüşdə də əsas müzakirə mövzusu olub. Xarici işlər naziri Çavuşoğlu mediaya bildirib ki, Türkiyə prezidenti Pompeoya Amerika etməyəcəyi təqdirdə Türkiyənin Suriyadakı kürd terrorunu təmizləməyə hazır olduğunu deyib.

Belə anlaşılır ki, Türkiyənin İdlibdə atəşkəs və anlaşma olmasında marağının arxasında həm də kürd amili var. Türkiyə prezidenti rusiyalı həmkarı ilə sentyabrda əldə etdiyi razılaşma ilə İdlibdəki müxalif silahlıları qorumaqla yanaşı, Suriya hakimiyyətini kürdlərə doğru yönəltməyi hədəfləyir. Çünki İdlib razılaşması heç bir problemsiz həll olunsa, o zaman Suriya hakimiyyətinin tezliklə kürdlərlə qarşı-qarşıya gəlməsi qaçılmaz olacaq. Suriya hökuməti ilə kürdlərin - SDQ - toqquşması ilk növbədə Türkiyə və onun dəstəklədiyi qüvvələr üçün əlverişlidir. Bu səbəbdən də Ankara İdlibdəki silahlıları hər vəchlə atəşkəsə riayət etməyə məcbur edir. Artıq bilindiyi kimi, razılaşmanın əsas hissəsi yerinə yetirilib. Silahlıların bir hissəsi və ağır texnika atəşkəs bölgəsindən çıxarılıb. Hətta o da məlumdur ki, ən radikal qruplaşma olan HTŞ-dən bəzi qruplar ayrılaraq Suriya hakimiyyəti ilə anlaşmaya getməyə hazır olduğunu bildirirlər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

**Ötən bir ildə yaşananlar göstərir ki, korrupsiya yolu ilə əldə edilən pullar təhlükə qarşısındadır. Uzun illər boyu Avropa bankları xüsusilə postsovet ölkələrindən daşınan milyardlar üçün təhlükəsiz məkan olub.**

# Xaricə daşınan korrupsiya pulları təhlükədə

## Ekspertlər Azərbaycanda kapital amnistiyası təklif edirlər; **Vahid Əhmədov:** "O vəsaitlər kənarda saxlanmayıb Azərbaycana gətirilsin, qanunsuz işlərə deyil, iqtisadiyyata yatırılsın"

Korrupsiyanın çiçəkləndiyi bu ərazidən çox böyük həcmdə pullar ofşor zonalara, Avropaya, Amerikaya daşınıb. Lakin son illərdə dünyada gizli hesablar, qazanılma yolları bəlli olmayan vəsaitlərin heç də təhlükəsiz olmadığı aydınlaşdı. Buna görə də bütün dünyada bu pullara qarşı mübarizə başladıldı. Düzdür, ilkin mərhələdə mübarizə çağırış və bəyanatlar formasında olduğuna görə diqqəti elə də cəlb etmədi. Lakin zaman gəldi ki, müxtəlif ölkələrdən qanunsuz yollarla çıxarılan pulların aşkarlanması istiqamətində real addımlar atılmağa başlandı.

Bu istiqamətdə ilk prosedurlar da elə postsovet ölkələri ilə bağlıdır. Özbəkistanın keçmiş prezidentinin qızı Gülnarə Kərimovanın Avropa banklarına yerləşdirdiyi milyonlarla dollar vəsaiti ölkəsinə qaytarırlar. Azərbaycan Beynəlxalq Bankının sabiq sədri Cahangir Hacıyevin xanımının Böyük Britaniyadakı varidatı eyni aqibəti yaşamaq üzrədir. Prosesə Böyük Britaniya kimi ofşorlar ölkəsinin aktiv şəkildə dəstək verməsi göstərir ki, Azərbaycandan kənara çıxarılan pulların sahibləri də hər an Zamirə Hacıyevanın taleyini yaşaya bilərlər. İllər boyu dövlətdən, xalqdan oğurlanaraq ofşorlara, Avropa banklarına daşınan vəsaitlərin geri qaytarılması indiki qədər real olmayıb. Əlbəttə, əgər



dövlət səbiyyəsində proses başladılarsa - Z.Hacıyeva işində olduğu kimi.

**Bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov Z.Hacıyeva işinin Azərbaycan üçün ciddi fürsət yaratdığı qənaətindədir:** "İngiltərədə Zamirə Hacıyevanın əmlakının müsadirəsi Azərbaycan kimi ilkin kapitalın toplanma dövrünü yaşayan ölkələr üçün mühüm əhəmiyyətə malikdir. Məlumdur ki, ilkin iri kapital bir qayda olaraq, cinayət yolu ilə əldə edilir. Sonra isə hər şey sıfırdan başlanır və qanunçuluq bərqərar olur. Həmişə və hər yerdə belə olub. Qərbdə bu, əsrlər öncə olub. Məhz buna görə də çirkli pullarla mübarizə məsələsində Qərb hazırda daha qətiyyətlidir. Mənbəyi məlum olmayan, yəni böyük ehtimalla qanunsuz gəlirlər hesabına əldə edilmiş əmlakın müsadirəsi təcrübəsinə Qərbin mənəvi lideri olan İngiltərə başladı. Aydın məsələdir ki, bu təcrübə yaxında digər Qərb ölkələrində də yayılacaq".

**Ekspert deyir ki, Azərbaycan kimi iri kapitalın, bir qayda olaraq, korrupsiya yolu ilə əldə edildiyi ölkənin zənginləri (məmurlar və onlarla əlbir olan sahibkarlar) Qərb ölkələrinə qoyduğu sərmayələri itirə bilər:** "Məlum olduğu kimi, Azərbaycanda mənfəətlə işləyən şirkət azdır, iri şirkətlər isə demək olar ki, yoxdur. Yüksək gəlirlər əsasən kölgə iqtisadiyyatı hesabına olub. Hətta qanuni gəlirləri də savadlı şəkildə rəsmiləşdirə bilməyiblər əksər hallarda. Odur ki, xaricdə əmlakının qanuni mənbəyini sübut edə bilən varlılarımız azdır. Buna görə də hazırda onlar təşvişdədir. Əlbəttə, onların çoxunun Rusiya, habelə Birləşmiş Ərəb Əmirlikləri kimi müsəlman ölkələrində də əmlakı var. Lakin təbii, Qərbə etibarları daha çoxdur (*geosiyasi liderlik və qanunçuluğun yüksək səviyyəsi səbəbindən*) və əmlakların əksəriyyəti məhz oradadır. Buna görə də hazırda zənginlərimiz istər-istəməz xaricə çıxardıqları əmlakın müəyyən hissəsini Azərbaycana qaytarmaq istəyəcək.

Dövlətimiz də bundan istifadə etməlidir".

**Ə.Həsənovun fikrincə, dövlət bu fürsətdən istifadə edərək kapital amnistiyası elan etməlidir:** "Ən başlıcası kapitalların amnistiyası həyata keçirilməlidir. Yəni hər kəs qeyri-leqal əmlakını bəyan etməklə və müəyyən vergi (məsələn, 10 faiz) ödəməklə həmin əmlakı leqallaşdırma imkanına malik olmalıdır. Həmin əmlakın mənbəyi ilə maraqlanmaq lazım deyil. Təki əmlak ölkəmizin iqtisadi inkişafına xidmət etsin. Amma eyni zamanda dövlət bəyan etməlidir ki, amnistiya üçün müəyyən edilən dövr (1-3 il) bitəndən sonra müəyyən edilən qanunsuz əmlak müsadirə ediləcək və sahibi cinayət məsuliyyətinə cəlb olunacaq".

**Hüquqşünas bildirir ki, bütün bunlarla bərabər köklü hüquqi islahatlar, o cümlədən qanunvericilik islahatları (Mülki Məcəllədən başlayaraq) aparılmalıdır:** "Məhkəmə islahatları aparılmalıdır: hakimlər müstəqil, ədalətli və savadlı olmalıdır. Çünki zənginlər, sahibkarlar yalnız əminlik şəraitində fəaliyyət göstərə bilər. Oyun qaydaları şəffaf və dəqiq olmalı, onlara riayət edilməlidir. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bundan asılıdır! Gözəl şansımız var! Qərb yeni təcrübəyə Azərbaycan vətəndaşından başladı. Bizdən oğurlanan pulları özünə götürdü. Odur ki, biz də elə etməliyik ki, ölkəmizdən daha heç kəs qanunsuz pul çıxarmasın, hamı vəsaitini Azərbaycanın inkişafına sərf etsin. Biz də birinci olaq".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov deyir ki, Azərbaycanda da qanunsuz yollarla kapital əldə edənlər var:** "Bir vaxtlar Azərbaycanda müəyyən qanunlar olmayıb, bəzi şəxslər üçün şərait yaradılıb, müəyyən nazirlər və vəzifədə olan digər şəxslər kifayət qədər kapital əldə ediblər. Bu kapitalın əsas hissəsini Azərbaycandan çıxararaq xarici ölkələrdə ya əmlak alıblar, ya banklara yerləşdiriblər. Hazırda dünyada buna tamamilə əks olan proseslər gedir. Məsələn, Böyük Britaniya dövləti qanun qəbul edib ki, mənim ərazimdə mal-mülk almırsan, gəl onu necə qazandığını açıqla, deklarasiya ver mənbəyi barədə".

**Millət vəkilinin sözlərinə görə, kapital amnistiyasının verilməsi təklifi ilə bir neçə dəfə Milli Məclisdə də çıxış edib:** "Demişəm ki, o vəsaitlər kənarda saxlanmayıb Azərbaycana gətirilsin. Daha terrorçuluğu dəstəkləmək və digər qanunsuz işlərə deyil, iqtisadiyyata yatırılsınlar. Vəsaitlər investisiya kimi müxtəlif sahələrə qoyulsun, istehsal müəssisələri yaradılsın. O pulu onlar onsuz da oğurluq-doğurluq əldə ediblər. Bundan sonra onlardan ölkə üçün səmərəli istifadəyə nail olmaq üçün amnistiya ən doğru yoldur. Dünyada gedən proseslər göstərir ki, belə bir amnistiyanın verilməsi gec-tez Azərbaycanda gündəmə gələcək".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Araşdırmaçı jurnalistlərin ölümünə səbəb olan çirkli pullar...

## Korrupsiyadan yazmaq hər yerdə təhlükəlidir; ABŞ mətbuat nümayəndələrinin öldürüldüyü ölkələr sırasındadır

**Jurnalistika dünyada ən təhlükəli peşələrdən biridir. Hər il müxtəlif ölkələrdə onlarla jurnalist qətlə yetirilir, yaxud həbs olunur. 2017-ci ildə dünyada 42 jurnalist öldürülüb, 262-si isə həbs edilib. 2018-ci ilin doqquz ayında isə peşə fəaliyyəti ilə bağlı dünyada 56 jurnalist qətlə yetirilib. Bu, 2017-ci ilin on iki ayından da çoxdur.**

"Sərhədsiz reportyorlar" beynəlxalq təşkilatının məlumatına görə, öldürülən jurnalistlərin yarısından çoxu hərbi münaqişə zonalarında qətlə yetirilib. Ən çox mətbuat nümayəndəsi Əfqanıstanda (13), ABŞ və Meksikada (hər birində 6 nəfər) həyatını itirib. Mərkəzi Afrika Respublikasında isə üç rusiyalı jurnalist - Orxan Camal, Aleksandr Rastorquev və Kiril Radçenko qətlə yetirilib.

Bundan başqa, 2018-ci ilin doqquz ayı ərzində vətəndaş jurnalistikasının 10 təmsilçisi və 4 jurnalist köməkçisi də həlak olub.

Jurnalistlərin hərbi münaqişə gedən ərazilərdə öldürülməsi, bir növ, təbii qarşılanır. Lakin bu çətin peşənin hərbi reportyorluğu qədər ağır olan digər sahəsi də var - araşdırmaçı jurnalistika. Son illərdə jurnalistikanın bu qanadı daha çox inkişaf edib desək, yəqin ki, səhv etmərik. Bunu bütün dünyada korrupsiya və çirkli pullarla mübarizənin güclənməsinin nəticəsi sayanlar da var, əksinə, beynəlxalq səviyyədə araşdırmaçı jurnalistlərin ortaya çıxardığı faktların bu mübarizəni aktuallaşdırdığını deyənlər də. Səbəbi nə olsa da, inkişafda olan araşdırmaçı jurnalistikanın demokratiyanın oturuşduğu Avropada belə həyatı xoş keçmir. Ümumiyyətlə, dünyanın heç bir ölkəsində araşdırma ilə məşğul olan jurnalistlər yerli hakimiyyət və hüquq-mühafizə orqanları, biznesmenlər və siyasətçilərlə yaxşı münasibətlərdə olmur. Lakin son bir il ərzində jurnalistlərin məhz araşdırdıqları mövzulara görə öldürülməsi halları Avropada da narahatlıq doğuracaq həddə gəlib çatıb.




Ötən ilin oktyabrında Maltada araşdırmaçı-jurnalist Dafna Qalisiya öldürülüb. Onun avtomobili evinin yaxınlığında partladıldı. Dafna Araşdırmaçı Jurnalistlərin Beynəlxalq Konsorsiumunun üzvü idi, kifayət qədər təhlükəli mövzularda araşdırmalar aparırdı. Bunların arasında yüksək vəzifəli Malta məmurlarına bağlı ofşor şirkətləri, investisiya müqabilində verilən "qızıl viza" - Malta pasportu məsələsi, ən nəhayət isə Liviyadan olan ticarətçilərin və Siciliya mafiyasının həyata keçirdiyi qanunsuz yanacaq ticarəti var idi.

Dafnanı "WikiLeaks-qadın" adlandırırdılar. Onun bloqunun 400 min izləyicisi vardı - Malta əhalisinin sayı isə cəmi 420 min nəfərdir.

Dafnanın ölümündən sonra 15 ölkənin jurnalistləri onun adına araşdırmalarını davam etdirmək üçün xüsusi layihə yaratdılar. Ötən ilin sonlarında Malta polisi ölüm işinə aidiyyəti olan 10 nəfəri həbs etsə də, Dafnanın ailəsi bildirdi ki, tutulanlar arasında onun araşdırmalarında adları keçən bir nəfər belə yoxdur: **"Cinayətin mümkün iştirakçılarının hamısı siyasi müdafiə altındadır və məsuliyyətdən yayındırılmaqda davam edilir".**

Bu ilin fevralında Slovakiyada araşdırmaçı-jurnalist Yan Kusiyak öz nişanlısı ilə birlikdə öldürülüb. Mayda evlənməyə hazırlaşan cütlüyü Yanın Velka-Maka şəhərindəki evində güllələmişdilər.

Beynəlxalq Korrupsiya və Mütəşəkkil Cinayətkarlığın Araşdırılması Mərkəzinin (OCCRP) üzvü olan Yan nüfuzlu slovak siyasətçiləri və İtaliyadakı cinayət qruplaşması olan "Ndrangeta" ilə bağlı olan biznesmenlərin işini araşdırırdı. Yan Bratislavadakı dəbdəbəli yaşayış kompleksinə bağlı vergidənyayınma faktının araşdırılması ilə məşhurlaşmışdı. Bu araşdırma kütləvi etirazların başlanmasına, hətta tikintini aparanlarla işgüzar əlaqələrinə görə Slovakiyanın daxili işlər nazirinin istefasına səbəb oldu. Yan həmçinin İtalyan mafiyasının baş nazir Robert Fitsonun köməkçiləri ilə əlaqələrini araşdırırdı. Bu əlaqələr hesabına İtaliya mafiyası Slovakiya hökumətinə və dövlət əhəmiyyətli məlumatlara çıxış əldə edirdi.

Onun öldürülməsi kütləvi etirazlara və hökumətin istefasına səbəb oldu. Yanın ölümünün araşdırılması bir sıra qəribə hadisələrlə müşayiət olundu. Belə ki, onun OCCRP-dəki həmkarı, çex jurnalisti Pavla Xoltsovanı Slovakiya polisinə "dostyana" söhbətə dəvət etdilər. Polisdə onu yüksək məbləğdə cərimə ilə hədələyərək yazışma və kontaktlarına baxmaq üçün telefonunu götürdülər. Bu hadisə OCCRP, Beynəlxalq Mətbuat İnstitutu və bir çox Avropa siyasətçiləri tərəfindən kəskin tənqid olundu.

Sentyabrın 27-də polis Kusiyakı öldürməkdə şübhəli bilinən şəxsləri həbs etdiyini bildirdi.

Bu yaxınlarda isə Bolqarıstanda Viktoriya Marinova adlı jurnalisti qətlə yetirdilər - o, soyulmuş və zorlanmışdı. Rusa şəhərinin telekanalında aparıcı işləyən Viktoriyanın ölümündən az əvvəl müəllif verilişi olan "Detektor"un ilk buraxılışı efirə verilmiş və çox böyük rezonansa səbəb olmuşdu. Proqramda əsas müzakirələr Bolqarıstanda yerli hakimiyyətin yardımı ilə qanunsuz sifarişlər alan dəmiryol şirkəti ətrafında aparılmışdı. Verilişə OCCRP-nin iki araşdırmaçı-jurnalist üzvü - bolqar Dimirti Stoyanov və rumın Atilla Biro dəvət olunmuşdu. D.Stoyanov WikiLeaks-lə əməkdaşlıq edir. Onlar Bolqarıstanda Avropa Birliyi tərəfindən maliyyələşdirilən layihələrdəki böyük korrupsiya əməlləri barədə məlumatlar verdilər. Sentyabrda hər iki jurnalisti bolqar polisi fiziki sor təzyiq etməklə həbs etmişdi. Polis onları infrastruktur layihələri üçün Avropa Birliyindən pul alan şirkətlərdən birinin məhv edilən sənədləri ilə maraqlandıqlarına görə silahla hədələmişdi.

Vikrotiyanın ölümü də Avropa Birliyi rəsmilərinin kəskin etirazları və hadisənin tezliklə araşdırılması çağırışlarına səbəb olub. Lakin əvvəlki hadisələr də göstərir ki, belə çağırışlar heç də qətl işinin obyektiv araşdırılması demək deyil. Araşdırma ilə məşğul olan jurnalistlərin bu qətllərdən çəkinərək peşə fəaliyyətlərinə ara verdiklərini, yaxud fəaliyyət istiqamətini dəyişdiklərini söyləmək mümkün deyil...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

**Azərbaycanda bəzi bələdiyyələr xüsusi mülkiyyəti təsdiq edən sənədi ("kupça") olmayan fərdi evlərin sakinlərinə müraciət edərək onlardan əmlak və torpaq vergisinin ödənilməsini tələb edirlər. Vətəndaşlara bələdiyyələr tərəfindən təqdim edilmiş tədiyyə bildirişlərində hətta bu da xüsusi qeyd edilir ki, vergini müəyyən edilmiş müddətdə ödəməsələr, Vergi Məcəlləsinə uyğun olaraq, onların ödənilməmiş vergi məbləğinə 0,1 faiz məbləğində əlavə ödəniş hesablanacaq və maliyyə sanksiyası tətbiq ediləcək. Bununla da bələdiyyələr vətəndaşları həmin vergilərin onlar tərəfindən qanunauyğun şəkildə toplanıldığına inandırmaq istəyirlər.**

# Bələdiyyələrin "kupça"sız evlərdən əmlak vergisi alması qanunsuz imiş

## **Ekspert:** "İnsanların əmlakı rəsmiləşməlidir ki, onunla bağlı əməliyyatları yerinə yetirə bilsinlər"



Lakin məlum olub ki, bələdiyyələrin vergi ödənişi ilə bağlı etdikləri bu tələb qanunauyğun deyil. Belə ki, məsələ ilə bağlı "Trend"in sorğusunu cavablandıran Vergilər Nazirliyi xüsusi mülkiyyəti təsdiq edən sənədi olmayan fərdi evlərə görə əmlak və torpaq vergisinin toplanılmasının düzgün olub-olmadığına aydınlıq gətirib. Nazirlikdən bildirilib ki, Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinə görə, fiziki şəxslər onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə müəyyən edilmiş dərəcələr tətbiq olunmaqla, bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilməklə əmlak vergisi ödəyirlər.

Nazirlik "xüsusi mülkiyyətdə olan binalar"ın hansı binalara şamil olunduğuna da açıqlayıb.

**Bildirilib ki, əgər Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş mülkiyyəti təsdiq edən sənədi yoxdursa, o zaman həmin binaya əmlak vergisi hesablanmamalıdır:** "Əmlak vergisi yalnız mülkiyyəti təsdiq edən sənədi olan əmlaklar üçün tətbiq edilir. Qanunvericilikdə "kupça"sı olmayan evlərə görə əmlak vergisi nəzərdə tutulmayıb. Belə hallarla üzləşən vətəndaşlar yerli bələdiyyələrə müraciət edərək Vergi Məcəlləsinin 197.1.1 maddəsinə istinad edə bilərlər. Həmin maddəyə görə, yalnız xüsusi mülkiyyətdə olan evlər üçün əmlak vergisi hesablanır".

**Nazirlikdən qeyd edilib ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 12.1-ci bəndində də "xüsusi mülkiyyət" anlayışı dəqiqləşdirilib. Qanunun həmin maddəsinə görə, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanan sənədlər əsasında qeydiyyat orqanı tərəfindən verilən dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir:** "Ona görə də Dövlət Reyestr Xidmətindən çıxarış olmadıqda həmin mülk xüsusi mülkiyyətdə olan əmlak sayılmır və onun üçün əmlak vergisi hesablanmır".

**Sənədi olmayan həyətyanı sahələr üçün bələdiyyələr tərəfindən torpaq vergisinin toplanılmasına gəldikdə, Vergilər Nazirliyindən bildirilib ki, qanunvericiliyə görə, fiziki şəxslərin və müəssisələrin Azərbaycan ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır:** "Vətəndaşın evinin mülkiyyəti təsdiq edən sənədi olmaya bilər, amma həmin torpaq onun istifadəsindədirsə, torpaq vergisi ödənilməlidir. Məsələn, Sumqayıtda olan və 10 min kvadrat metrədək torpaqların hər 100 kvadrat metrinə (1 sot) görə 50 qəpik, 10 min kvadrat metrdən artıq olan torpaqların hər 100 kvadrat metrinə görə 1 manat torpaq vergisi hesablanır. Əgər torpaq 3 sotdursa, onda vətəndaş 1 manat 50 qəpik torpaq vergisi ödəməlidir".

Qeyd edək ki, Vergilər Nazirliyinin bu açıqlaması bələdiyyələr, xüsusilə paytaxt bələdiyyələr üçün ciddi problem deməkdir. Belə ki, kəndlərdə, eləcə də Bakıdakı fərdi evlərin böyük əksəriyyətinin rəsmi qeydiyyat sənədi - "kupçası" yoxdur. Uzun illərdir Azərbaycanda bu sahədə tədbirlər görülsə də, hələ ki ciddi nəticələrin əldə olunduğunu söyləmək qeyri-mümkündür. Bələdiyyələrin isə məhdud gəlir mənbələrindən biri məhz fiziki şəxslərin əmlak vergisidir. Sənədsiz evlərdən əmlak vergisinin alınmaması bələdiyyələri çətin duruma sala bilər.

**İqtisadçı-ekspert Samir Əliyevin sözlərinə görə, "Azərbaycanda əmlak vergisinin iki növü var:** "Hüquqi şəxslərdən tutulan əmlak vergisi dövlət vergisi hesab olunur. Fiziki şəxslərdən tutulan vergi isə uzun müddət yerli vergi hesab olunub. Lakin bir müddət əvvəl bu verginin bir hissəsi dövlət büdcəsinə verildi. Yeni kənd təsərrüfatına yararlı torpaqlar təyinatı üzrə istifadə olunmadığı təqdirdə ona münasibətdə ayrı vergi rejimi tətbiq olundu. Azərbaycanda tutulan əmlak vergisinin həcmi elə də böyük deyil. Düzdür, son illərdə bu sahədə artım var. Məsələn, ötən il ölkə üzrə bələdiyyə büdcəsinin 21 faizi əmlak vergisindən formalaşıb. Lakin bunu yetərli saymaq mümkün deyil".

**Ekspert deyir ki, əmlak vergisi ilə bağlı problem qanunvericilikdəki boşluqla bağlıdır:** "Uzun müddət Azərbaycanda əmlak vergisi sovet dövründən qalma metodologiya ilə - əmlakın balans dəyəri əsasında hesablandı. O vaxt biz İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi olaraq təkliflər hazırladıq ki, fiziki şəxslərdən tutulan əmlak vergisini bazası təkmilləşdirilsin. Hökumətə təklif etdik ki, ya vergi əmlakın bazar dəyəri əsasında, ya da sahəsinə görə hesablansın. Hökumət bu variantlardan birini - əmlakın sahəsinə görə vergi tutulmasını seçdi. Gözlənilirdi ki, bu dəyişiklik bələdiyyələrin gəlirlərini xeyli artıracaq. Lakin belə olmadı".

**Ekspertin sözlərinə görə, problem Azərbaycanda daşınmaz əmlakın qeydiyyatı ilə bağlıdır:** "Bu sahədəki problemlər əmlak vergisinin toplanmasına mane olur. Fiziki şəxslərin torpaq vergisi fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan torpaq sahəsinə görə tutulur. Vergi Məcəlləsinin 197-ci maddəsində isə göstərilir ki, rezident və ya qeyri-rezident şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış sahəsindən ödənilir. Xüsusi mülkiyyət sayılması üçün daşınmaz əmlakın reyestrdə qeydiyyatı və çıxarışı olmalıdır. Azərbaycanda, xüsusilə Bakı şəhərində bu çıxarışı almaq çoxsaylı səbəblər üzündən illərdir ağır problemə çevrilib. Bu problem isə digər problemə səbəb olur - bələdiyyələr öz ərazilərində faktiki mövcud olan əmlaka görə vergi toplaya bilmirlər".

**S.Əliyev hesab edir ki, problemi həll etmək üçün bir variant Vergi Məcəlləsinə dəyişiklik edilməsidir:** "Fiziki şəxslərin əmlak vergisi də onların mülkiyyətində və ya istifadəsində olan əmlaka görə hesablanmalıdır. Bu, reyestrdən çıxarışı olmayan daşınmaz əmlakdan da vergi toplanmasına imkan verər. Nəzərə almaq lazımdır ki, kəndlərdə də evlərin böyük əksəriyyətinin çıxarışı yoxdur. Digər variant isə budur ki, bütün sənədsiz evlər sənədləşdirilsin. Düzdür, bu, uzun və ağır yoldur, amma ən düzgün olanı budur. İnsanların əmlakı rəsmiləşməlidir ki, onunla bağlı əməliyyatları yerinə yetirə bilsinlər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Xaricə gedən Azərbaycan vətəndaşlarının sayı 14 faiz artıb

**Bu ilin yanvar-sentyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,1 faiz artaraq 3562,9 min nəfər olub.**

Dövlət Statistika Komitəsindən "Trend"ə verilən məlumata görə, ölkə vətəndaşlarının 30,7 faizi İrana, 30,3 faizi Gürcüstana, 19,4 faizi Rusiya Federasiyasına, 13,2 faizi Türkiyəyə, 1,6 faizi Ukraynaya, 1,0 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib.

Səfər edənlərin 66,4 faizi kişilər, 33,6 faizi isə qadınlar olub. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 53,2 faiz, Gürcüstana gedənlərin sayı 2,7 faiz artıb, Rusiyaya gedənlərin sayı 1,4 faiz, Türkiyəyə gedənlərin sayı 1,3 faiz azalıb.

Cari ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan vətəndaşlarının 80,3 faizi dəmir yolu və avtomobil, 18,9 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

2018-ci ilin yanvar-sentyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,1 faiz artaraq 3562,9 min nəfər olmuşdur. Ölkə vətəndaşlarının 30,7 faizi İrana, 30,3 faizi Gürcüstana, 19,4 faizi Rusiya Federasiyasına, 13,2 faizi Türkiyəyə, 1,6 faizi Ukraynaya, 1,0 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,8 faizi isə digər ölkələrə səfər edib. Səfər edənlərin 66,4 faizi kişilər, 33,6 faizi isə qadınlar olub.



Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 53,2 faiz, Gürcüstana gedənlərin sayı 2,7 faiz artıb, Rusiya Federasiyasına gedənlərin sayı 1,4 faiz, Türkiyəyə gedənlərin sayı 1,3 faiz azalıb.

Cari ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 80,3 faizi dəmir yolu və avtomobil, 18,9 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.



# Bu il qış sərt keçəcək - ekspert xəbərdarlıq etdi

## **Telman Zeynalov:** "Qarın çox yağacağı, havaların şaxtalı keçəcəyi proqnozlaşdırılır"

**"Azərbaycanda bu il qış sərt keçəcək". Bu barədə Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov "Yeni Müsavat"a açıqlamasında deyib. Ekspert qeyd edib ki, bu il qış mövsümündə havalar əvvəlki illərlə müqayisədə daha şaxtalı olacaq: "Gördüyünüz kimi, oktyabr ayı çox soyuq başladı. Ayın sonuna hələ çox var, lakin havalar ötən illərlə nisbətdə daha tez soyuyub. Beləliklə, qış mövsümü də daha tez başlayacaq və sərt olacaq. Qarın çox yağacağı, havaların şaxtalı keçəcəyi proqnozlaşdırılır. Beləliklə, sərt qışa hazır olmalıyıq.**

Bildiyiniz kimi, ümumiyyətlə, bu il dünyada qışın sərt, şaxtalı keçəcəyi bildirilir. Hətta alimlər bu il tarixin ən soyuq qışı yaşanacağını bildirir. Bu isə hava iqliminin dəyişməsi ilə əlaqədardır".

Xatırladaq ki, qış fəsli bu il ölkəmizə dekabrın 22-də daxil olacaq.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**
**Musavat.com**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

# Qarderobları tərk edən qalstuk

## Son illərdə qalstuk taxanlar azalıb - səbəb...

**Qalstuk klassik geyimlərin ayrılmaz hissəsi kimi təsbit olunub. Bu, həm də mədəniyyət incisi kimi xarakterizə edilib. Xüsusilə rəsmilərin, iş adamlarının, siyasətçilərin üstünlük verdiyi aksesuara hazırda münasibət birmənalı deyil. Son illərdə qalstuk taxanların sayı əhəmiyyətli dərəcədə azalıb. Uzun illər qarderobların ayrılmaz hissəsi olan qalstuklara müasir dövrümüzdə böyük tələbat var desək, yanılarıq. Bunu biz yox, satıcılar deyir.**





"Yeni Müsavat"ın əməkdaşı qalstuk satılan mağazalara baş çəkib.

İlk daxil olduğumuz məkan böyük alış-veriş mərkəzlərindən biridir. Kişi geyimlərindən ibarət cərgələrə üz tutduqda burada çox sayda qalstuka rast gəldik. Künc hissələrə düzülən aksesuara olan maraq da azdır. Satıcılar deyir ki, il ərzində 10-dan artıq qalstuk satılmır. Qiymətlər isə 6 manatdan 90 manata kimidir.

Üz tutduğumuz digər məkan isə "28 May"da yerləşən alış-veriş keçididir. Burada qiymətlər 3 manatdan 10 manata kimidir. Satıcılar az adamın qalstuka maraq göstərdiyini deyir.

Bəs qalstuk nə zaman yaranıb? Qalstukun Avropa mədəniyyətinə gəlişi 17-ci əsrin ortalarına təsadüf edir. Belə ki, 1635-ci ildə 30 illik müharibə dövründə Fransa Kralı XIII Luis üçün döyüşən 160 minə yaxın legioner arasında bir qrup əsgər var idi ki, onlar geyimlərindəki bir elementə görə digər döyüşçülərdən fərqlənirdilər. Xorvatiyadan olan bu əsgərlərin boğazlarına bağladıqları dəsmallar kralın diqqətini cəlb etmişdi. Müharibə bitdikdən sonra Parisə qayıdan həmin cəngavərlər kralın hüzuruna gətirilir. Onların boynundakı rəngli dəsmallar kralın o qədər xoşuna gəlir ki, boğazına dəsmal bağlayan əsgərlərdən ibarət alay yaradır. Bu alayın adı isə "croat" yəni "xorvat" olur.

Bundan sonra qalstuk fransız elitası arasında geniş yayılır. Daha sonra bu dəb İngiltərədə də populyarlaşır. Əvvəllər qalstuk elə möhkəm bağlanırdı ki, insanlar başlarını belə çevirə bilmirdilər. Ilk vaxtlarda Fransada qalstuku 5 formada bağlamaq mümkün idisə, hazırda bu rəqəm 200-ə yaxındır.

Bəs qalstuka olan marağın azalmasına səbəb modadır, yoxsa digər psixoloji amillər var?

**Modelyer Elnarə Bəkirova "Yeni Müsavat"a açıqlamasında deyib ki, Azərbaycandan fərqli olaraq xarici ölkələrdə qalstuka böyük maraq var:**

"Bir neçə il öncə qalstuklar qadınların da sevimli aksesuarına çevrilmişdi. Həm gözəllik, həm ciddilik üçün onlar qalstuklar taxırdılar. Azərbaycanda əsasən rəsmi tədbirlərdə, toylarda istifadə olunan sözügedən aksesuarlara maraq xarici ölkələrdə böyükdür. Qalstuk işgüzar insanların seçimidir. O, ciddiliyin göstəricisidir. Qeyd edim ki, uzun mübahisəli keçmişi olan qalstuklardan bu gün dünyada təqribən 650 milyon insan istifadə edir. Bir ildə satılan qalstukların sayı 800 milyona yaxındır".

**❑ Könül İBRAHİM, "Yeni Müsavat"**
**Fotolar Elçin ƏKBƏROVundur.**




## İlin sonunadək «Bakcell» 400-ə yaxın yeni 4G (LTE) baza stansiyası istifadəyə verəcək




**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» şirkəti bu ilin sonunadək ölkə ərazisində 400-ə yaxın yeni 4G baza stansiyası istifadəyə verəcək.**

**Şirkət 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndirməyə davam edib. İl ərzində istifadəyə verilmiş 380 LTE (4G) stansiyasından 120-si ölkənin müxtəlif bölgələrində quraşdırılıb. Bunun sayəsində "«Bakcell»"in yüksək keyfiyyətli 4G xidməti artıq Bakı və Abşeron yarımadası ilə yanaşı, Azərbaycanın 40-a yaxın region və şəhər mərkəzində mövcuddur.**

**Bu gün «Bakcell» istifadəçiləri ümumilikdə 7000-dən çox baza stansiyası vasitəsilə ölkənin ən etibarlı, ən sürətli və ən iri mobil şəbəkəsinin bütün üstünlüklərindən tam şəkildə yararlanmaq imkanına malikdirlər. Bundan əlavə, əhatə dairəsi və şəbəkə həcmi baxımından ölkənin ən böyük 4G (LTE) şəbəkəsi "«Bakcell»"ə məxsusdur. Şirkətin 1300-dən çox LTE baza stansiyası ilə saniyədə 225 meqabitə qədər sürəti dəstəkləyən 4G şəbəkəsi gündən-günə genişlənir.**

**«Bakcell» öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək üçün şəbəkə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq tədbirlər görür. Nəticədə, abunəçilər ən yüksək keyfiyyətli və etibarlı mobil zəng və internet xidmətinin üstünlüklərindən yararlanırlar.**

**"Bizim gördüyümüz işlərə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Bu yaxınlarda «Bakcell» "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Dünyada tanınmış "Ookla" şirkəti tərəfindən təsdiq edilib ki, «Bakcell» şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. Mobil şəbəkələrin sınaq və təhlili sahəsində dünyanın ən nüfuzlu qurumu tərəfindən toplanmış bu məlumat Azərbaycandakı istifadəçilərin 18.000 ayrı-ayrı unikal cihaz vasitəsilə həyata keçirdiyi 80.000 sınaq (Speedtest platforması üzərindən) əsasında formalaşıb", deyə «Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**«Bakcell» özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin modernizasiyası və əhatə dairəsinin genişləndirilməsi istiqamətində geniş miqyaslı işlərin həyata keçirilməsini davam etdirir.**

## "ASAN xidmət" adından dələduzluq edənlərin məhkəməsi: biri axtarışdadır

**"ASAN xidmət"ə işə qəbulla bağlı vətəndaşlardan qanunsuz pul tələb edən şəxslər hakim qarşısına çıxarılır. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma başa çatıb və iş baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

Məhkəmənin hazırlıq iclası hakim Ramella Allahverdiyevanın sədrliyi ilə oktyabrın 24-də baş tutacaq.

Qeyd edək ki, Baş Prokurorluq və Dövlət Agentliyinin birgə araşdırması ilə Nurəddin Quliyevin Zakir Məmmədov və Yasin Məmmədovla bir qrup şəxs halında ayrı-ayrı tanışlarını vəzifəli şəxsə rüşvət verilməklə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın elan etdiyi müsabiqə və müsahibədən kənar "ASAN xidmət" mərkəzində işə qəbul etdirəcəyinə inandırıb. Onun ümumilikdə 20 min manat pulu dələduzluq yolu ilə ələ keçirməsinə, başqasını rüşvət verməyə təhrik etməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaq zamanı N.Quliyevin qulluq mövqeyindən istifadə edərək "Ayla LTD", "Elvin İnşaat Servis" MMC-lərinin təsisçisi Ədalət Zaidov və Rauf Əzizovla əlbir olaraq Məhərrəm Əliyevin evini banka girov qoyub 100 min manat pul alacağını vəd edərək buna görə banka ilkin olaraq 15 min manat pul ödənilməli olduğunu bildirib onların vasitəsilə sonuncudan həmin məbləğdə pulu ələ keçirib dələduzluq etməsinə də əsaslı şübhələr müəyyən edilib.

İstintaqla həmçinin N.Quliyevin Ə.Zaidov və R.Əzizovla birlikdə tikinti layihəsinin həyata keçirilməsi üçün pula ehtiyac olduğunu yalandan İlqar Qədimova bildirirək 18 min manat pulu alıb təkrarən dələduzluq etmələrinə əsaslı şübhələr müəyyən olunub.

İş üzrə N.Quliyev, Z.Məmmədov və Y.Məmmədova Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Y.Məmmədovun Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 saylı cəzaçəkmə müəssisəsində cəza çəkməsi nəzərə alınıb, Ə.Zaidova isə həmin Məcəllənin 178.2.1, 178.2.3, 178.2.4-cü maddələri ilə ittiham elan edilməklə barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

İstintaqdan yayındığına görə R.Əzizov barəsində axtarış elan edilərək sonuncu barəsində cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrılıb.

**❑ İlkin MURADOV, Musavat.com**

### Elan

**Ağdaş rayon Kotanarx kənd sakini Şahmuradov Srac Laçın oğluna məxsus JN 246 saylı dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Ağdaş rayon Əmirarx kənd sakini Muxtarov Məqsəd Qubad oğluna məxsus JN 012 saylı dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 220 (7109) 18 oktyabr 2018

| # | Group 1 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | France | 3 | 2 | 1 | 0 | 4:2 | 7 |
| 2. | Netherlands | 2 | 1 | 0 | 1 | 4:2 | 3 |
| 3. | Germany | 3 | 0 | 1 | 2 | 1:5 | 1 |

| # | Group 2 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Switzerland | 3 | 2 | 0 | 1 | 9:3 | 6 |
| 2. | Belgium | 2 | 2 | 0 | 0 | 5:1 | 6 |
| 3. | Iceland | 3 | 0 | 0 | 3 | 1:11 | 0 |

| # | Group 3 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Portugal | 2 | 2 | 0 | 0 | 4:2 | 6 |
| 2. | Italy | 3 | 1 | 1 | 1 | 2:2 | 4 |
| 3. | Poland | 3 | 0 | 1 | 2 | 3:5 | 1 |

| # | Group 4 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Spain | 3 | 2 | 0 | 1 | 10:4 | 6 |
| 2. | England | 3 | 1 | 1 | 1 | 4:4 | 4 |
| 3. | Croatia | 2 | 0 | 1 | 1 | 0:6 | 1 |

| # | Group 1 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Ukraine | 3 | 3 | 0 | 0 | 4:1 | 9 |
| 2. | Czech Republic | 3 | 1 | 0 | 2 | 3:4 | 3 |
| 3. | Slovakia | 2 | 0 | 0 | 2 | 1:3 | 0 |

| # | Group 2 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Russia | 3 | 2 | 1 | 0 | 4:1 | 7 |
| 2. | Turkey | 3 | 1 | 0 | 2 | 4:6 | 3 |
| 3. | Sweden | 2 | 0 | 1 | 1 | 2:3 | 1 |

| # | Group 3 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bosnia & Herzegovina | 3 | 3 | 0 | 0 | 5:1 | 9 |
| 2. | Austria | 2 | 1 | 0 | 1 | 1:1 | 3 |
| 3. | Northern Ireland | 3 | 0 | 0 | 3 | 1:5 | 0 |

| # | Group 4 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Wales | 3 | 2 | 0 | 1 | 5:3 | 6 |
| 2. | Denmark | 2 | 1 | 1 | 0 | 2:0 | 4 |
| 3. | Ireland | 3 | 0 | 1 | 2 | 1:5 | 1 |

| # | Group 1 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Israel | 3 | 2 | 0 | 1 | 4:2 | 6 |
| 2. | Scotland | 2 | 1 | 0 | 1 | 3:2 | 3 |
| 3. | Albania | 3 | 1 | 0 | 2 | 1:4 | 3 |

| # | Group 2 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Finland | 4 | 4 | 0 | 0 | 5:0 | 12 |
| 2. | Greece | 4 | 2 | 0 | 2 | 3:4 | 6 |
| 3. | Hungary | 4 | 1 | 1 | 2 | 5:6 | 4 |
| 4. | Estonia | 4 | 0 | 1 | 3 | 3:6 | 1 |

| # | Group 3 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Norway | 4 | 3 | 0 | 1 | 4:1 | 9 |
| 2. | Bulgaria | 4 | 3 | 0 | 1 | 5:3 | 9 |
| 3. | Cyprus | 4 | 1 | 1 | 2 | 4:6 | 4 |
| 4. | Slovenia | 4 | 0 | 1 | 3 | 3:6 | 1 |

| # | Group 4 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Serbia | 4 | 2 | 2 | 0 | 5:2 | 8 |
| 2. | Montenegro | 4 | 2 | 1 | 1 | 6:3 | 7 |
| 3. | Romania | 4 | 1 | 3 | 0 | 4:3 | 6 |
| 4. | Lithuania | 4 | 0 | 0 | 4 | 2:9 | 0 |

| # | Ranking of third-placed teams | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Romania | 3 | 0 | 3 | 0 | 2:2 | 3 |
| 2. | Hungary | 3 | 1 | 0 | 2 | 2:3 | 3 |
| 3. | Albania | 3 | 1 | 0 | 2 | 1:4 | 3 |
| 4. | Cyprus | 2 | 0 | 0 | 2 | 1:4 | 0 |

| # | Group 1 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Georgia | 4 | 4 | 0 | 0 | 9:0 | 12 |
| 2. | Kazakhstan | 4 | 1 | 2 | 1 | 6:4 | 5 |
| 3. | Latvia | 4 | 0 | 2 | 2 | 1:5 | 2 |
| 4. | Andorra | 4 | 0 | 2 | 2 | 1:8 | 2 |

| # | Group 2 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Luxembourg | 4 | 3 | 0 | 1 | 10:1 | 9 |
| 2. | Belarus | 4 | 2 | 2 | 0 | 6:0 | 8 |
| 3. | Moldova | 4 | 1 | 2 | 1 | 2:4 | 5 |
| 4. | San Marino | 4 | 0 | 0 | 4 | 0:13 | 0 |

| # | Group 3 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | Kosovo | 4 | 2 | 2 | 0 | 6:2 | 8 |
| 2. | Azerbaijan | 4 | 1 | 3 | 0 | 5:2 | 6 |
| 3. | Faroe Islands | 4 | 1 | 1 | 2 | 4:7 | 4 |
| 4. | Malta | 4 | 0 | 2 | 2 | 4:8 | 2 |

| # | Group 4 | MP | W | D | L | G | Pts |
|---|---|---|---|---|---|---|---|
| 1. | FYR Macedonia | 4 | 3 | 0 | 1 | 8:5 | 9 |
| 2. | Armenia | 4 | 2 | 0 | 2 | 6:4 | 6 |
| 3. | Gibraltar | 4 | 2 | 0 | 2 | 3:5 | 6 |
| 4. | Liechtenstein | 4 | 1 | 0 | 3 | 5:8 | 3 |











# Mìllətlər Lìqası: almanlar yox, türklər yox, gürcülər var...

## Azərbaycan 4-cü turdan sonra şansını itirməyib, Gürcüstan qrupdan çıxmağı həll edib, Almaniya və Türkiyə isə...

**Millətlər Liqasında sürpriz nəticələrlə zəngin olan 3-cü və 4-cü tur yekunlaşdı. Azərbaycan milli komandası Farer adaları ilə oyunda üzümüzü güldürsə də, Malta ilə Bakıdakı qarşılaşmada qələbə qazana bilmədik.**

İki turda 4 xal qazanmaq əslində pis nəticə sayılmamalıdır, amma oyunçularda həlledici məqamlarda bir az dəqiqlik olsa, bir az da bəxtimiz gətirsəydi, Kosovonun rəqib meydanda xal itirməsi ilə turu hətta qrup lideri kimi də başa vuracaqdıq. Amma olmadı... Əsas odur ki, hələ qrupda birincilik uğrunda mübarizəmiz son iki turda da davam edəcək. Növbəti oyunu Azərbaycan millisi yenə öz meydanında Farer adalarına qarşı keçirəcək. Son oyun isə rəqib meydanında Kosovo millisi ilə olacaq. Gözlənilir ki, məhz Kosovo ilə rəqib meydanındakı son turda qrupda birinci yerin taleyi həll olunacaq. Qalan iki qarşılaşmada milli komandamıza yalnız qələbə lazımdır ki, istədiyi nəticəni əldə edərək qrup lideri olsun. İnanırıq ki, Qurban Qurbanovun yetirmələri bunun məsuliyyətini tam mənasında anlayırlar və meydana yalnız qələbə üçün çıxacaqlar.

Millətlər Liqasında qonşu Gürcüstan milli komandasının uğurları haqda danışmaq lazım gəlir. Komanda ardıcıl 4-cü qələbəsini qazanaraq 12 xalla (bu qrupda 4 komanda mübarizə aparır) öz qrupunda birinci yerin taleyini həll edib. Belə bir nəticəyə nail olan ikinci komanda isə Finlandiya millisidir. Norveç, Lüksemburq, Bosniya və Hersoqovina, eləcə də Makedoniyanın öz qruplarında 9 xal toplaması da qeyd edilməlidir.

İspaniya, Portuqaliya və Fransa öz qruplarında liderlik edirlər, amma Almaniya millisi məyus etməkdə davam edir. Əgər Rusiyadakı dünya çempionatında Almaniyanın rüsvayçı nəticəsi (qrupdan çıxa bilmədilər) olmasaydı, düşünmək olardı ki, almanlar Millətlər Liqasını ciddiyə almır və Avropa çempionatına seçmə mərhələdən vəsiqə qazanacağına tam təminatları var. Amma belə görünür ki, dünyanın üç ən güclü komandası sırasında olan Almaniyada problem biz düşündüyümüzdən daha ciddidir. Almanların dərdini çəkən deyilik, onlar mətin millətdirlər və başlarının çarəsinə baxacaqlar.

Türkiyə millisi də Millətlər Liqasında azarkeşlərini məyus etməkdədir. Son tur qarşılaşmasının səhəri redaktor dostlardan birinin dediklərini xatırlatmağın yeri var. Dedi ki, Azərbaycanın Malta ilə oyunundan məyus olub arada kanalı Rusiya-Türkiyə qarşılaşmasına çevirib. Görüb ki, Türkiyə lap pis oynayır və uduzur. Lap dilxor olub yenidən qayıdıb Azərbaycanla oyuna. "Bizə şükür..." deyərək. Əlbəttə, biz Türkiyə millisini heç vaxt ayırmamışıq, uğuruna toy-bayram edib, məğlubiyyətinə üzülmüşük. Təəssüf ki, komanda son aylar ciddi uğursuzluq zolağındadır. Dünya çempionatına vəsiqə qazana bilmədi, indi də belə...

Qeyd edək ki, Millətlər Liqasında beşinci tura noyabrın 15-də start veriləcək. Noyabrın 17-də Azərbaycan millisi Farer adalarını qəbul edəcək.

Yuxarıda Millətlər Liqasında 4-cü turdan sonra qruplardakı vəziyyəti əks etdirən cədvəli təqdim edirik.

❑ **Nazim SABİROĞLU**
**"Yeni Müsavat"**





